# ADP Müstəqillik Günü ilə bağlı Azərbaycan xalqını təbrik etdi


SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№20 (3311) 28 May / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


**ANA XƏBƏR**



## "Azəryolservis" sakinlərin pay torpağına gedən yolu zəbt edib

# "Azərbaycana qarşı yeni müstəvidə savaş aparılır"

Millət vəkili: "Vətən müharibəsində qələbəmizi həzm etməyən dairələr indi də ölkəmizə qarşı "narkotik müharibəsi" aparırlar"




**GÜNÜN NƏBZİ**

MEDİA

## Rusiya Qafqazdan sıxışdırılır...



Məhəmməd Əsədullazadə: "Ermənistan-Rusiya əlaqələrinin böhranı Cənubi Qafqaz üçün təhlükəsiz mühit formalaşdırır" 8-9

MEDİA

## İranın Azərbaycana qarşı "narkotik savaşı"

Bu, hərbi təcavüzdən daha təhlükəlidir... 5

Toplum

## Salyan sakinləri "Azərqaz"ı ittiham edir, amma...

Eldəniz Vəliyev: "Abonentlərə satılan qaza hava vurulduğu haqda şayiələr bu sahəni bilməməkdən irəli gəlir" 13

Xəbər

## Həbsxanadan növbəti məktub

Ədalət Məmmədov absurd ittihamlarla həbs olunduğunu iddia edir 2

Yazar

## Tarix və şəxsiyyət: olduğu kimi

Elçinin "Mir Cəfər Bağırov kim idi?" məqaləsi haqqında düşüncələrim 14

Cəmiyyət

## Təhsil ekspertləri DİM rəhbərini "topa tutdu"



Abituriyentlər DİM-Təhsil Nazirliyi qarşıdurmasının girovuna çevrilib 4

Müsahibə

## "Yeni qurulan hər bir ailə məcburi qaydada psixoloji dəstək almalıdır"



Günay Hüseynli: "Narkotik asılılığında psixoloji faktor çox önəmli rol oynayır" 12

Şikayət

## "Polis əməkdaşı bizdən 1000 manat rüşvət istəyir"

"Onu da əminliklə bilirəm ki, başıma gələn bütün hadisələrin arxasında qaynatam durur"

Goranboy rayonu, Düzqışlaq kənd sakini Novruzov Vüqar Rafiq oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, polislər onu qaynatasının tapşırığı ilə tutaraq, şöbədə döyüblər: "Mən, Novruzov Vüqar Rafiq oğlu, yazaraq bildirirəm ki, heç bir səhvim olmadan, fevral ayının 11-də Dəliməmmədli şəhərində polislər tərəfindən tutularaq, döyülmüşəm... 7

Şikayət

## Maştağa sakini polisdən şikayətçidir

O, polis şöbəsində cibinə narkotik qoyulduğunu iddia edir

Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Xanlar küçəsinin sakini Cabbarov Nizaməddin Nizami oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə müvafiq qurumlara müraciət edir: "Mən, Cabbarov Nizaməddin Nizami oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız... 7

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№20 (3311) 28 May / 2024-cü il    Həftədə 1 dəfə çıxır    Qiyməti: 60 qəpik

# Qadın ailə ocağının qorucusudur

**Sağlam ailə həyatı qurmaq bütün ağıllı insanların əsas amalıdır. Ailə bir dünyadır. Bu dünyanın səadəti isə qarşılıqlı məhəbbətdir. Alim-psixoloqları uzun araşdırmalardan sonra tam şəkildə əmin olublar ki, ailə həyatının mənası, əbədi xoşbəxtliyi daha çox qadınlardan asılıdır. Bəli, ailə ocağının qoruyucusu qadındır. Yəni evin qadını nəcib, qurucu olanda həmin ailə möhkəm, davamlı olur, illərin qanadlarında saf sevgiyə dönərək fərəh mənbəyinə çevrilir. Vaxtı ilə Onere de Balzak da gözəl demişdir: "Qızların tərbiyəsi çox mühüm bir məsələdir. Çünki millətin gələcəyi anaların əlindədir". Fəqət, xoşbəxt ailə cəmiyyətin sarsılmaz dayağıdır.**



Qadın ailənin xoşbəxtliyi naminə özündə hansı xüsusiyyətlərini birləşdirməlidir. Alimlər bununla bağlı hər bir qadının öz kiçik sirri olmaqla bərabər, onlar üçün bir neçə məsləhət hazırlamışlar. Aşağıdakı göstərilənlərə əməl etməklə qadınlar həmişəlik ailə sədaqətinə tapınarlar.

1. Başlıcası qadın ailəsini, uşaqlarını sənətdən, karyeradan, eləcə də statusdan öndə tutmalıdır. O, qadınlıqla bağlı hər şeyə önəm verməli, öz kişisindən yüksəkdə durmamalıdır.

2. Yaxşı ailə böyük qüvvə, diqqət, qayğı, bacarıq istəyir. Bunlar kişidən daha çox qadından tələb olunur.

3. Bəzən ailədə dava, münaqişə başlanır. Bu zaman qadın günahı özündə axtarmalıdır. Həm də xasiyyət və hərəkətdə kişiyə çevirmək qadına heç də şərəf gətirmir. Qadının səbiretməsi ailədə əmin-amanlıq yaradır.

4.Yeri gələndə ərinizə müsbət keyfiyyətlərindən ürəklə danışın. Bütün xoşbəxtliyinizi onunla bağlayın. Kişilər qadından daha çox məhəbbət, qayğı, mehribanlıq, səmimiyyət gözləyir, bu xoş münasibətlə öz ailəsinə bağlanırlar. Onunla rəqabətə isə girməyin.

5. Ərinizə qarşı heç vaxt narazı, qaşqabaqlı çıxmayın.

6. Ailədə məhəbbət və borc qarşılıqlı fəaliyyət göstərməlidir. Ləyaqətli o qadındır ki, uşaqları atalarına qarşı sevgi və hörmət ruhunda, düzgün tərbiyələndirir.

7. Bir iş tutanda, birinci ərinizlə məsləhətləşin. Həmişə də onun fikirlərinə üstünlük verin.

Bəli, yaşadığımız dünyada bütün gözəlliklər ailə xoşbəxtliyindədir.

**Zəfər ORUCOĞLU**

## Əyləncə səhifəsi

### Evli kişilərin kökəlmə səbəbi



İlk uşaq dünyaya gələndən sonra kişilər təqribən 2 kilo kökəlirlər. Uzun illər bu kökəlməni öyrənməklə məşğul olan mütəxəssislər axır ki, bunun səbəbini öyrəniblər. Ən əsası ata olan kişilərin çiynindəki məsuliyyət artır, bütün problemlərini özü həll etdiyi üçün idmana getməyə vaxt tapa bilmir. İkinci səbəb isə uşaq olan evə dondurma, qurabiyə kimi qidaların daha çox girdiyi və adətdən kişilərin uşaqların yeməyindən də yeməkdir.

### Dünyanın kök qadınları



Tarixin ayrı-ayrı dövrlərində tanınmış qadınların əksər hissəsi boy-buxunlu, cüssəli olublar. Həm keçmişdə, elə indinin özündə dahi həkimlər dediyimə gözəl nümunədir. Sonrası Kraliçalar Kleopatra və Yekaterina öz boy-buxunu, cüssəsi ilə həmişə ətrafını heyran qoyublar. İngiltərənin Kraliçası Anna, ispan kraliçaları Xristina və İzabella da dolğun qadın olublar. Niderlandın Kraliça-naibi, Böyük Britaniyanın Kraliçası iri, yaraşıqlı bədən quruşu ilə diqqət mərkəzində durublar.

Ədəbiyyat və incəsənət sahəsində də qadınlar arasında bu keyfiyyət görünür. Corc Elliot, Jorj Sand, Haana Moor, xanım De-Stal buna misal ola bilər. Məşhur fransız rəssamı Roza Boner həddən artıq kök qadın olub.

### Uşağın ürəyini müdafiə edən "dərman"



Anasının sinəsinə baş qoyan körpələr daha çox və rahat yatırlar. Bu zaman onların ürəyi stressə üç dəfə az məruz qalır, gələcəkdə isə onlar şəxsiyyət arası ünsiyyətləri daha asan qura bilirlər.

Həm də bu üsul beynin normal inkişafına gözəl təsir göstərir. Körpə üçün həyatın ilk həftələrində ideal vəziyyət ananın qucağında yatmaqdır. Sonra uşaq 3-4 yaşınadək ana ilə bir çarpayıda yatmağını davam etməlidir.

# Könül mülkünün dahi söz ustadı

## Məhəmməd Füzulinin anadan olmasının 530-cu illiyi münasibətilə ədəbi-bədii yubiley tədbiri keçirildi




**Astara Pedaqoji Kollecində Azərbaycanın görkəmli şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530-cu illiyi münasibətilə "Könül mülkünün soltanı" adlı ədəbi-bədii yubiley tədbiri keçirildi.**

Şairin həyat və yaradıcılığına həsr olunmuş video-çarxın nümayişindən sonra tədbirdə, "Dövrünün bir sıra ictimai və fəlsəfi məsələlərini yüksək formada öz əsərlərində əks etdirən, Yaxın Şərq xalqlarının bədii idrakının zirvəsi olan, XVI əsr ədəbiyyatının möhtəşəm abidələrini yaradan Məhəmməd Füzulinin Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yeri vardır"- fikirləri ilə başlayan kollecin direktoru, professor, şəhid atası K.Kazımov daha sonra əlavə etdi:



"Əsərlərində məhəbbətin qüdrətini, insan gözəlliyini tərənnüm edən dahi Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə keçirilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında baş tutan ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı yaddaşlara əbədi yazıldı. 530 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamından irəli gələn tədbirlər əsasında, biz, xalqımızın böyük şairinin yaradıcılığı ilə bir daha dərindən tanış olacaq, onun əsərlərini öyrənəcək və Füzuli sənətini istər gənc nəslə, istərsə bütün dünyaya tanıdacağıq. Füzulinin isə bir şair kimi buna haqqı çatır".





Tədbirdə çıxış edən digər natiqlər - Astara şəhər 1 saylı məktəbin direktoru, kollecin İctimai şura üzvü Xədicə Əliyeva, Şüvi kənd orta məktəbinin direktoru Adil Rzayev şairin yubileyinin kollec tələbələrinin iştirakı ilə yüksək səviyyədə təşkilinin gənclərin xalqımızın milli-mənəvi sərvətlərinə, klassik irsimizə olan marağını artıracağını dedilər.

Tədbirin bədii hissəsi də maraqlı alındı. Lənkəran şəhər C.Cabbarlı adına 1 saylı uşaq musiqi məktəbinin və Astara şəhər O. Kazımi adına uşaq musiqi məktəbinin nəğməli qonaqların ifasında şairin qəzəlləri əsasında muğam parçaları ürəklərə özgə ovqat gətirdi. Eləcə görkəmli bəstəkar Cahangir Cahangirovun səslənən "Füzuli kantatası" səmimi alqışlarla qarşılandı. Kollec tələbələrinin Füzuli yaradıcılığına müraciəti yerinə düşdü.

**Zəfər ORUCOĞLU**

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov

Tel: 070 333 22 85
012 496 98 93

E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# Həbsxanadan növbəti məktub...

## Ədalət Məmmədov absurd ittihamlarla həbs olunduğunu iddia edir

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 9 saylı Cəzaçəkmə Müəssisəsində saxlanılan Məmmədov Ədalət Məhərrəm oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına növbəti şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, eləcə də digər aidiyyəti qurumların rəhbərlərinə müraciət edir.**

"Möhtərəm Prezident!

Diqqətinizə çatdırım ki, mən 1995-2018-ci ilin avqust ayına kimi DİN-də polis nəfəri kimi xidmət edib, sonra polkovnik-leytenat rütbəsi alaraq Nəqliyyatda Baş Polis İdarəsinin Dövlət Dəmiryolu Polis İdarəsi rəisinin müavini olmuş Qarayev Nizami Müslüm oğlunun barəmdə yazmış olduğu böhtan xarakterli şikayət ərizəsi əsasında qanunsuz olaraq həbs olunmuşam. Mənim həbsim sifarişli və qanunsuz olduğundan, barəmdə irəli sürülən saxta ittihamlara xitam verilməli, sifarişli çıxarılan hökm və məhkəmə qərarları ləğv edilməlidir.

Daxili işlər orqanlarında yüksək vəzifə tutmuş polis polkovnik-leytenantı N.M.Qarayev iddia edir ki, guya, 2017-ci ilin yanvar ayının əvvəlində Qaradağ RRİ və ya DİN-nin mərkəzi aparatında Baş idarə rəisi vəzifəsinə, ya da RRİ-nə rəis vəzifəsinə getmək üçün mənə (bir ay əvvəl təsadüfən tanıdığı və işsiz olduğunu bildiyi halda) 45 000 min manat, 2017-ci ilin mart ayında 85 000 min manat və 2017-ci ilin iyununda təkrarən 35 000 (otuz beş) min manat (iki nəfəri şahid göstərib, mənim BMW X-5 maşınım olmadığı halda), ümumilikdə 160 000 (yüz altmış min) manat vermişdir.

Barəmdə yazılmış epizodun əsassız-böhtan xarakterli olması məhkəmə prosesində bilərəkdən nəzərə alınmamışdır. Araşdırılması xüsusilə mühüm əhəmiyyət kəsb edən sualları diqqətinizə çatdırıram:

1. Daxili işlər orqanlarında xidməti maaşı 800-1000 manat olan polis polkovnik-leytenantı M.Qarayev 160 000 manat pulu necə əldə etmişdir?

2. Daxili işlər orqanları əməkdaşının sahibkarlıq fəaliyyəti göstərməsi qanunla qadağan olduğu halda, himayəsində çoxsaylı ailə üzvü olan şəxs 160 000 manat pulu hansı yolla qazanmışdır?

3. N.M.Qarayev Daxili işlər orqanlarında xidmətdə olarkən yüksək vəzifəyə getmək üçün rüşvət vermişdirsə, hansı səbəbdən onun özünə qarşı AR.CM-nin 308, 309, 29, 312 maddələri ilə cinayət işi başlanmamışdır?

4. N.M.Qarayevin qeyd etdiyi 160 000 manat rüşvətin DİN-nin "vəzifəyə təyinat taarif cədvəli"nə uyğunluğu mümkündürmü?

5. N.M.Qarayevin sübuta yetirilə bilməyən 160 000 manat rüşvət iddiası tamamilə uydurma olduğu halda, nəyə görə AR.CM-nin 147-ci maddəsi (eləcə də 148 maddə) ilə ona qarşı ittiham irəli sürülməmişdir?

6. Neçə illər Daxili işlər orqanlarında xidmət etmiş şəxsin təsadüfən bir ay əvvəl tanış olduğu işsiz şəxsə inanaraq, sənədsiz-sübutsuz, video çəkilişsiz, əl yazması, şahidlərsiz üç dəfəyə hissı-hissə "rüşvət verməsi", işi alınmadığı halda özü tədbir görməməsi və ya hansısa quruma dərhal şikayət etməməsi mümkündürmü?

7. N.M.Qarayevin şikayət ərizəsində adlarını qeyd etdiyi şahidlərin heç birinin faktı təsdiqləməməsi, mənim X5 markalı maşınım olmadığı halda, o, nə üçün cinayət məsuliyyətinə cəlb olunmayıb?

Qeyd etdiyim sualların cavabı onu deməyə əsas verir ki, ittiham olunduğum epizodlara xitam verilməli, N.M.Qarayevə AR.CM-nin 296, 308, 309, 29, 312 maddələri ilə cinayət işi açılaraq, həbs edilməlidir.

**Hazırladı: KƏNAN**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların da mövqeyini dərc etməyə hazırıq.***

# "Bu, xalqımızın milli nailiyyətidir..."

## ADP Müstəqillik Günü ilə bağlı Azərbaycan xalqını təbrik etdi

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata görə, toplantıda ölkədə və dünyada baş verən bir sıra ictimai-siyasi hadisələr müzakirə predmeti olub.**

İdarə Heyəti Ermənistanda kilsəsinin keşişləri və bir qrup radikal qüvvələrin Paşinyan hakimiyyətinin Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiya istiqamətində atdığı rasional addımlara qarşı həyata keçirdikləri kütləvi aksiyaları və ixtişaşları ətrafında müzakirə aparılıb. Müzakirələrdə kilsənin İsa peyğəmbərin dəvətinə uyğun olaraq sülh tərəfdarı kimi deyil, müharibə tərəfdarı kimi çıxış etməsi qətiyyətlə pislənilib, bu hadisələrin Cənubi Qafqazda sülhə və təhlükəsizliyə ciddi təhlükə yaratdığı, eyni zamanda beynəlxalq ictimaiyyətin bu hadisələrdə Ermənistan hakimiyyətinin yanında olmasının vacibliyi qeyd edilib.

İdarə Heyəti cari ilin aprel ayının 19-da Azərbaycan və Ermənistan arasında dövlət sərhədlərinin delimitasiyası üzrə komissiyalarının arasındakı razılığa əsasən Qazax rayonunun işğal altında olan 4 kəndinin ötən həftə rəsmən Azərbaycanın nəzarətinə keçməsini təqdir edib. İtkisiz, dinc danışıqlar yolu ilə 4 kəndimizin geri qaytarılmasını Azərbaycan dövlətinin ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində əldə etdiyi növbəti nailiyyət kimi dəyərləndirib.

İdarə Heyəti ötən həftə ölkə başçısı tərəfindən verilən əfv fərmanını humanist addım kimi dəyərləndirib, eyni zamanda bu əfv fərmanı ilə siyasi motivli həbs olunan



vətəndaşlarımızın azadlığa buraxılmamasından təəssüfləndiyini bildirib. İdarə Heyəti Azərbaycan hakimiyyətini beynəlxalq qınaqların da olduğu indiki dövrdə siyasi məhbus kimi tanınan şəxslərin və media əməkdaşlarının da növbəti əfv fərmanları ilə azadlığa buraxılması istiqamətində humanist addımlar atmağa çağırıb.

İdarə Heyəti Rusiya-Ukrayna arasında davam edən qanlı münaqişənin son durumu ilə bağlı da müzakirələr aparıb. Müzakirələrdə 44 günlük İkinci Qarabağ savaşı zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Gəncə və Bərdə şəhərlərinə endirilən raket zərbələri kimi ötən həftə Rusiya hərbi birləşmələri tərəfindən Ukraynanın Xarkov şəhərinə endirilən raket zərbələri nəticəsində çoxsaylı mülki insanların həlak olması ilə əlaqədar olaraq Ukrayna xalqına başsağlığı verilib. İdarə Heyəti dünya ictimaiyyətini müharibələr zamanı mülki insanların və obyektlərin hədəf seçilməsi ilə bağlı baş verənlərə seyrçi mövqedə qalmamağa, Rusiya-Ukrayna arasında davam edən qanlı müharibənin tez bir zamanda dayandırılması və Rusiya işğalının cilovlanması üçün beynəlxalq hüquq mexanizmlərinin daha ciddi şəkildə işə salınmasına çağırıb.

İdarə Heyəti ötən həftə İrlandiyanın, Norveçin və İspaniyanın Fələstini dövlət kimi tanımasına da münasibətini bildirib. İdarə Heyəti bu mühüm hadisəni 1947-ci ildə Fələstinin dövlət kimi tanınması ilə bağlı BMT tərəfindən qəbul edilən qətnamənin icrasına töhvə kimi dəyərləndirib, eyni zamanda bu hadisənin Yaxın Şərqdə uzun illərdir sürünən qanlı münaqişənin bitməsinə, sülhün və təhlükəsizliyin təmin olunmasına da töhvə verəcəyinə ümidvar olduğunu bildirib. İdarə Heyəti Yaxın Şərqdə sülhüm və əmin-amanlığın təmin olunması naminə digər dünya dövlətləri tərəfindən Fələstinin dövlət kimi tanınmasının vacibliyi qeyd edilib. Müzakirələrdə bildiriblər ki, Fələstinin radikal qüvvələrinin İsrail dövlətinə qarşı apardığı mübarizəyə son qoyulmalı, bundan sonra İsrail və Fələstin dövlətinin arasındakı münasibətlər dinc danışıqlar yolu ilə nizamlanmalıdır.

İdarə Heyəti sonda Azərbaycan Xalq Cümhüriyyətinin (AXC) 106-cı il dönümü ilə bağlı Azərbaycan xalqını, hər bir vətəndaşımızı, Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı təbrik edib.

İdarə Heyəti hesab edib ki, 28 may 1918-ci il tarixində əldə etdiyi "Müstəqillik günümüz" xalqımızın milli nailiyyətidir. Uzun əsrlər dövlətçilik tarixinə malik xalqların respublikaçılığa keçiddə ciddi problemlər yaşaması ilə müqayisədə ötən əsrin əvvəllərində müstəqil dövlətçiliyimizin məhz respublika əsasında yaradılması xalqımızın demokratik ruha və böyük böyük potensiala malik olması ilə bilavasitə bağlıdır. Azərbaycan Demokratik Cumhürriyyəti dünya respublikaçılıq təcrübəsindən və şimallı-cənublu Azərbaycan xalqının azadlıq ideyalarından bəhrələnmişdir.

Təəssüf ki, hazırkı iqtidarın yüksək eşalonunda təmsil olunan bir çox məmurlar respublikaçılıq ənənələrini real olaraq dərk edə bilmir və tətbiq etməkdən yayınır, Azərbaycan Xalq Cümhuriyyətinin tarixdəki rolunu kiçiltməyə çalışır, ölkədə yüksək vətəndaşlıq şüurunun formalaşdırılması üçün zəruri olan siyasi, hüquqi, iqtisadi, sosial və s. sahələrdə islahatları gecikdirir.

ADP İdarə Heyəti hesab edir ki, qarşıda duran bütün milli problemlərin həlli üçün respublikaçılıq və hakimiyyət bölgüsü, qanunların və hüququn aliliyi prinsipləri daim yüksəkdə tutulmalı, bu prinsiplər əsasında Şərqdə ilk Respublika qurmuş tarixi şəxsiyyətlərimiz daha geniş təbliğ edilməli, insanımızda yüksək vətəndaşlıq şüuru formalaşdırılmalıdır. ADP İdarə Heyəti insanlarımızı həqiqi vətəndaş olmağa, respublikaçılığı qorumağa, babalarımızın bizə miras qoyduğu dövləti yaşatmağa və azad, demokratik, hüquqi Azərbaycan Respublikası uğrunda fəal mübarizəyə qoşulmağa çağırıb.

**KƏNAN**

Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyasının açıqladığı illik hesabat ölkəmizdə narkotik bəlasının necə yayıldığı və ildən-ilə necə genişləndiyini göz önünə sərir. Məsələn, 2023-cü ildə müsadirə olunan narkotik vasitələr 7 tondan çoxdur. Şübhəsiz, təkcə müsadirə olunan narkotik bu həcmdədirsə, alıcısına çatan, yəni realizasiya olunan-satılan narkotik bundan dəfələrlə çoxdur. Hətta aparılan araşdırmalara əsasən deyə bilərik ki, müsadirə olunan narkotik realizasiya olunan, yəni alcıya satılan narkotikin 16%-ni təşkil edi və bu fantastik dərəcədə dəhşətli rəqəmdir. Elə bu barədə Azərbaycan Respublikası Milli Məclisinin İnsan Hüquqları Komitəsinin sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü, millət vəkili Zahid Orucla söhbətləşdik.



"Necə ki, terror qruplarına qarşı dövlətlərarası birgə müqavilələr, sazişlər, koalisiyalar qurulur, bu məsələdə də dövlətlər səviyyəsində, dövlətlərin gücü ilə birgə mübarizə aparılmalıdır"

# "Azərbaycana qarşı yeni müstəvidə savaş aparılır"

## Zahid Oruc: "Vətən müharibəsində qələbəmizi həzm etməyən dairələr indi də ölkəmizə qarşı "narkotik müharibəsi" aparırlar"

**- Statistik rəqəmlərə görə, Azərbaycanda 28 min məhbus var. Bunun 50%-dən çoxu narkotiklə bağlı cəza çəkir. Əlbəttə, bu rəqəm Azərbaycanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin mənzərəsini ortaya qoyur. Lakin illərdir ki, ölkədə bu sahədə mövcud olan problemi aradan qaldırmaq mümkün olmur. Siz bu problemin həlli yollarını necə görürsünüz?**

- Şübhəsiz ki, qeyd etdiyiniz məsələlər milli təhlükəsizlik problemidir. Çünki ona yalnız hansısa xarici qüvvələrin maraqları çərçivəsində yanaşmaq olmaz. Ancaq, digər tərəfdən, narkotik problemi, onun dövriyyəsi mütləq terror kimi beynəlxalq şəbəkəyə və geniş əlaqələrə malikdir. Avropa Birliyinin dərin və fundamental araşdırmalarına, tədqiqatlarına görə, minimum üç ölkə bu proseslərə cəlb olunur, 70%-dən yuxarı qənaətlər, rəylər bunun üzərindədir.

O üzdən ölkəmizdə hər hansı şəxs bir bitkini əkib-becərib, ondan sonra onun satışı ilə məşğul olursa, bu, kiçik bir göstəricidir. Əksər hallarda heroin və daha ağır narkotik maddələrin hamısı qonşu xarici dövlətlər tərəfindən bilavasitə əsas siyasət kimi ölkəmizə göndərilir. Bu da, "ağ ölüm" adlandırılan və bizim ələlxüsus gənclərimizə qarşı yönələn cinayət tədbirləridir. Belə olan halda, biz birinci bu məsələni - daxili işlər orqanları tərəfindən aparılan mübarizəni qiymətləndirməliyik. Burada tam əminliklə söyləyə bilərəm ki, gerçəkdən də bizim polis orqanlarımız bu bəlaya qarşı mübarizənin ön cəbhəsindədir. Şübhəsiz, bu, həddindən artıq böyük resurslar tələb edir. Çünki burada araşdırmalar əvvəlki kimi çox da sadə, tez tapılan vəziyyətdə deyil. Ona görə ki, həmişə cinayətkar qruplar, dəstələr, beynəlxalq şəbəkələr də öz üsul və vasitələrini kommunikasiya inqilabının çərçivəsində təkmilləşdirirlər. Elektron ticarət, xüsusilə də "patı"nın sosial şəbəkələr üzərindən yönləndirilməsi sübut edir ki, burada xarici qüvvələr elə bir mexanizmlər seçirlər ki, Azərbaycanın müvafiq qururmları prosesə daha çox resurs cəlb etsinlər. Yəni vaxt, insan amili, maddi məsrəflər olmalıdır ki, bu cinayətkarları ifşa edə bilsinlər.

"Millət olaraq narkotik ticarətinə qarşı dirənişimiz olmasa, hər zaman problemin yekun nəticəsi ilə döyüşmüş olacağıq"

İkinci məsələ, qeyd etdiyimiz kimi, xüsusilə də gənclərin əleyhinədir. Elə bilirəm ki, vətən müharibəsindən sonra savaşda qazandığımız qələbəni həzm etməyən dairələr sanki başqa mexanizmlər seçiblər. Bu da bir müharibədir, mən bunu belə qiymətləndirirəm. Səngərdə dayanan insanlarımıza bu vasitə ilə sanki zərbə vururlar. Evlər, ailələr bundan əziyyət çəkir, insanların gənc həyatı məhv olur, onlar həbsə atılır, bir tərəfdən dövlət hər bir məhbusun saxlanmasına ildə 7500-8000 manata yaxın xərc çəkir. Digər tərəfdən isə, ən böyük problemlərdən biri - bütün beynəlxalq hesabatlarda "narkotik əsaslı cinayətlər" deyilən bir kateqoriya var. Bu nə deməkdir? Bu o deməkdir ki, şəxs narkotikin ya ticarətinə və ya qəbuledicisinə çevirlibsə, o çalışır ki, hansısa bir əhval-ruhiyyə halında, necə olur-olsun, o maddəni əldə edə bilsin. O vəziyyətdə istənilən cinayətlərə - insan ölümləri, oğurluqlar, soyğunçuluq və s. addımlara gedirlər ki, həmin maddəni əldə etsinlər. Ona görə, bu göstəricini də biz diqqətdə saxlamalıyıq. Bu səbəbdən də, dövlət iradəsini mən birinci vurğuladım.

İkinci məsələ, əlbəttə ki, narkotiklərlə mübarizə üzrə müvafiq dövlət komissiyası var. Elə hesab edirəm ki, məsələyə yalnız bizim fədakar hüquq-mühafizə orqanları deyil, eyni zamanda bütün iqtisadi, sosial, ailə institutu, məktəb - hamı birgə cəlb olunmalıdır. Yəni buna bizim millət olaraq dirənişimiz, iradəmiz olmasa hər zaman problemin yekun nəticəsi ilə döyüşmüş olacağıq. Təəssüflər olsun ki, burada iki ifadəyə ayrıca vurğu etmək istəyirəm: birincisi, dövlət mənbəli narkotik maddələrin dövriyyəsi. Dövlət mənbəli, dövlət himayəli narkotik dövriyyəsi o deməkdir ki, yalnız hansısa xarici, onun dövriyyəsindən on milyardlarla dollar qazanan (bilirsiniz ki, ümumi qlobal çapda bu dövriyyə 500 milyarddan yuxarıdır) cinayətkar dairələr, ünsürlər deyil, arxasında sırf dövlətlər dayandığına görə, onlarla mübarizə çətindir. Bunu vurğulamaq istəyirəm. İkincisi isə, informasiya məkanında - ayrı-ayrı Avropa ölkələrində bu leqallaşıb, qonşu Gürcüstan da buna gedib - "biz bütün apteklərdə yüngül narkotik və marixananı yaymalıyıq və yaxud verməliyik, Cinayət Məcəlləsində bu məsələlərlə bağlı daha yüngülləşdirici formalar seçilməlidir" və s. kimi, özözlüyündə cəmiyyət düşüncəsində də sanki "ümummilli bəla" kimi deyil, adi siqaretin qəbulu kimi yanaşmalarla ictimai fikri məqsədyönlü şəkildə antixalq istiqamətində, vətəndaşlarımızın sağlamlığı əleyhinə yönəltməyi bacarıblar. O üzdən, siz də "YouTube"-da görürsünüz ki, bir çoxları gedib hansısa Avropa ölkəsində kiçik yayımlar edir, baxın, mən hal-hazırda İsveçdəyəm, görürsünüzmu, burada bu maddəyə kimsə yaxın gəlmir, bu adi haldır, nə üçün bizdə bu həbs olunsun?! Nəzərə alın, əgər dövlət qoyduğu sərt tədbirləri həyata keçirməsə, bölgəmizin xüsusiyyətini nəzərə alsaq, sizi əmin edirəm ki, bu proses daha da ağırlaşar. "Bu gün Əfqanıstan dünyanın heroin ehtiyacının 80%-ni ödəyir", - bu, nə deməkdir. O deməkdir ki, bütün xəstəxanalar, Avropa klinikaları əsas mənbəyini oradan götürürlər. Ona görə, Əfqanıstanın fundamental olaraq iqtisadiyyatı aqrar, kənd təsərrüfatının inkişafı, sənaye və s. üzərində deyil, narkotik əsaslı iqtisadiyyata dayanır. Bu üzdən, həmin coğrafiyalarda yerləşən ölkələr narkotik maddələrin tranziti hədəfindədirlər, yəni bir punktu, bir məntəqəsidirlər. Bu anlamda, dövlət özünün milli təhlükəsizlik siyasətində narkotiklərə qarşı mübarizəni ön yerə qoyub.

Mən komitə sədri kimi bu prosesin içində olduğuma görə deyirəm. Amma bir daha vurğulamaq istəyirəm ki, burada hökumət, dövlət, bütün ictimai təsisatlar, QHT-lər, media - hamı birgə çalışmalıdır. Əks halda bizim bu gün söylədiyimiz kimi, 20 minin üzərində olan məhkum edilmiş şəxslərin sırasında bu cür insanların sayı üstünlük təşkil edəcək. Bu məhkəmə orqanlarımız üçün də həddən artıq ağır yükdür.

Bilirsiniz ki, dünən (srağagün - red.) Əfv Komissiyasında müzakirələr başa çatdı. Oradakı tərkibi sadalamaq istərmirəm, bu açıq mənbələrdədir. Mən açıq demək istəyirəm ki, Prezident Administrasiyasının rəhbəri, hörmətli Samir Nuriyev, o cümlədən dövlətin bütün güc strukturları, daxili işlər orqanları, təhlükəsizlik sisteminin rəhbərləri bu işdə ən sərt, ən ciddi, ən təsirli tədbirləri həyata keçirməkdədirlər. Amma əgər desəniz ki, hansı mexanizmlər vasitəsilə ölkəmizi, onun insanlarını bu bəlaya yolxudurmaq istəyən qüvvələr, dairələr, dövlətlər var, onda görəcəksiniz ki, kimsə ekzotik halda virtual bir məkanda, haradasa, nəyinsə satışını görür, elə düşünür ki, bu adi haldır. Ancaq hansısa şəbəkənin bir hissəsi, prosesin özünün içərisində olursa, düşünəcək ki, bəli, bu "ağ ölüm" siyasətidir. Bunun elmi-termin adı belədir, "ağ ölüm" adlandırılır. Bax, onunla bağlı görüləcək bütün tədbirlər birgə olmalıdır ki, narkotik maddə qəbulediciləri və yaxud da onun daşıyıcılarını azalda bilək. O cümlədən, dispanserlərin də açılması, genişlənməsi, normal müalicə müəssisələrinin formalaşması da, əlbəttə, bizim siyasətimizin bir hissəsi olmalıdır.

**- Araşdırmalara görə, Azərbaycanda müsadirə olunan qeyri-qanuni narkotiklər ümumi dövriyyənin 16%-ni təşkil edir. Yəni ümumi dövriyyənin təxminən 84 faizi öz alıcısına çatan, realizasiya olunan narkotikdir. Bu onu deməyə əsas verir ki, ölkəmizə narkotik axanının ardı-arası kəsilmir. Bu probelmin həllinə baxışınız necədir?**

*(Ardı var)*

**Hazırladı: İ.SABİRQIZI**



Eldəniz QULİYEV

# YALTAQLIQ

Ey karlar, korlar və lallar məmləkətinin başıqapazlı sakinləri!

Eşidin, bilin, agah olun, üstəlik, sırğa eləyib qulağınızdan da asın: bu ölkədə yaltaqlardan başqa heç kəsin yaşamağa ixtiyarı yoxdur! ”Mıqq” eləmək də, deyinmək, ağız büzmək, donquldanmaq da, mütləq şəkildə icazəylə olmalıdır!..

Yalmanmasan, pişiklənməsən, əzilib-büzülməsən, süləngi olmasan... sənə adam kimi yaşamaq bilmərrə qadağandır!..

Milyon illərin təkamülü nəticəsində nəhayət ki, bizlər quyruqdan xilas ola bilmişdik... ağacdan enib də iki ayaq üstə gəzməyə öyrənmişdik...

Bu nooldu belə, nooldu ki, dübarə quyruq çıxarmağa məcbur olunduq?!

İndi neynəyək, başımıza haranın daşını tökək?.. Quyruğumuz yoxdusa və onu bulamağı bacarmırıqsa ölməliyikmi?.. Bəlkə qayıdıb təzədən ağaca dırmaşmalıyıq?!

Haqqı deyirsən - nahaq olursan. Düzü deyirsən - düzdə qalırsan. Boş məmur başını taqqıldadırsan - həmən daşlanırsan...

Ləyaqət hissini, abır-həyanı qorumaq ustəyirsən - dışlanırsan.

Yəni konkret deyirlər ki, cınqırınızı çıxarıb heç ”mıqq” da eləməyin.

Yəni deyirlər, heç mızıldanıb-zad da eləməyin və ağız bahəm edibən zada, filana mızdan-filandan da qoymayın!

Yəni deyirlər, biz çırtma çalaq, sizsə qol götürüb dingildəyə-dingildəyçalıb-oxuyun, oynayın və...

...yaltaqlanın,
pişiklənin,
yalağlanın,
gö... gözə girin...

Və başınıza dəyən qapazlara, dalınıza dəyə təpiklərə şükür eləyin!..

Hərdən adamın başına qəribə fikirlər gəlir... başdı də, - nə sərhəd tanıyır, nə sərhədçi. Öz-özünə deyirsən ki, ayə, görən niyə bizlər ağlı başında olan normal adamlar kimi, normal məmləkətdə yaşaya bilmirik?.. Bunun səbəbi nədi axı?.. Niyə axı mövcud olmaq üçün gərək, mütləq müti, kölə, riyakar olaq, ləyaqətimizi, qürurumuzu mütləq abort elətdirək?!

Axı bu şoqərib yaltaqlıq nəmənə olan şeydi ki, qrip epidemiyası kimi yapışıb yaxamlzdan, yayıla-yayıla artır, artır?..

Şəxsən mənə görə, yaltaqlıq bir qrup məxluqun varlı-kallı mənsəb sahibləri qarşısında alçalmaqdan həzz alması deməkdir.

Yaltaqlıq - bir düşüklük, dəyyusluq sindromu olmaqla yanaşı, insani məziyyətlərin eroziyayaya uğraması deməkdir.

Yaltaqlıq - şəxsi mənfəət naminə, könüllü şəkildə çirkli döşəmə əskisi olmağına barışmaq deməkdir.

Yaltaqlıq - qəsdən, bilə-bilə, yəni şüurlu surətdə bükülmək, əyilmək, əzilmək, əskilmək kompleksidir.

Yaltaqlıq - Allah-təalanın insana bəxş etdiyi qürur hissinin xırdalanıb ayaqlar altına atılması deməkdir.

Nəhayət, bu, insanın ifrat merkantil komformist marağından doğan psixi-klinik hadisə, eləcə də sağlam məntiqlə izah olunmayan əndirabadi bir nonsensdir.

Bircə şeyi dəqiq bilirəm: son zamanlar bu sayaq qeyri-sağlam naqislik çoxlarının yaşam tərzinə çevrilib. Çevrilib və...adiləşib!..

Adiləşən zərərli xüsusiyyətlər isə, çox pis nümunədir. Belə nümunələrin, nə vaxtsa ölkəyə, habelə ölkə vətəndaşlarına bədbəxtlik və çeşidli bəlalar gətirəcəyi labüddür... Sadəcə, bunun geci-tezi var!..

***P.S. Təəssüf və səd heyif ki, kömürü ağartmaq qanına yaltaqlıq hopmuş adamı islah etməkdən asandır!..***

# Təhsil ekspertləri DİM rəhbərini “topa tutdu”

**Dünən Dövlət Imtahan Mərkəzinin(DİM) keçirdiyi Ali Təhsil məktəblərinə qəbul imtahanında abituriyentlərə verilən suallar kütləvi narazılığa səbəb olub. Abituriyentlər və müəllimlər sualların həddindən artıq çətin, bəzilərininsə hətta “anormal dərəcədə” çətin və anlaşılmaz olmasından gileylənirlər.**

Bu mənzərə ilk dəfə deyil ki, müşahidə olunur, əvvəlki illərdə də buna rast gəlinib. Lakin mütəxəssislərin də dediyi kimi, bu dəfə “əndazələr lap aşılıb”...

Məsələn, sosial şəbəkədə coğrafiya müəllimlərinin və bu elm üzrə mütəxəssislərin toplaşdığı “Coğrafiya kabineti” adlı qrupdakı narazılıq dolu paylaşımlardan birində deyilir: “Bir sualda beş sual, doğru sıra, doğru uyğunluq, doğru olan, doğru olmayan... Nə idi bu? Nə suallar idi? Coğrafiyanın başına oyun açaaça gedirlər. Kimə deyək? Nə edək?”

Digər bir mütəxəssis isə yazır: “Bugünkü “əzələ nümayişi” kimə lazım? Bu imtahan millətin övladları üçündür, sənin “əzələ nümayişin” üçün yox. Bunun adı eqodur, ya nədir? Səriştəsizliyin niyə fənnə olan hörmətin azalmasına xidmət etməli idi?”

Bütün bu iradlar sualları hazırlayan quruma - DİM-ə, onun rəhbərliyinə, “bunker müəllimlərinə” şamil edilir. Coğrafiya fənni üzrə müşahidə edilən mənzərə 2-ci və 3-cü qrupa aid imtahandakı digər fənlərə də aiddir. Yuxarıda qeyd edilən kimi, imtahana salınan suallar sanki DİM sədri Məleykə Abbaszadənin kimlərəsə əzələ nümayişidir.

Mart və aprel aylarında keçirilən buraxılış imtahanında abituriyentlər yüksək nəticələr göstərib və təkcə maksimum göstəricini - 300 balı toplayanların sayı 53 nəfər olub. Görünür, bu nəticə DİM rəhbərliyini qane etməyib. Çünki bu halda Təhsil Nazirliyi sınaqdan uduşlu çıxmış kimi görünür.



## Abituriyentlər DİM-Təhsil Nazirliyi qarşıdurmasının girovuna çevrilib

Görünür, bu səbəbdən M.Abbaszadənin komandası “düyməni basmaq” və növbəti mərhələdə sualları anormal dərəcədə çətinləşdirmək qərarına gəlib. Ümumiyyətlə, Abbaszadənin uzun illərdən bəri Təhsil Nazirliyi ilə apardığı “intriqanın” səbəb və mahiyyəti barədə bir şey demək çətin olsa da, ötən illərdə bir neçə Təhsil nazirinin dəyişməsinə baxmayaraq, bu münasibətin dəyişməz olaraq qaldığı danılmazdır. Bundan ən çox əziyyət çəkən isə zatən tərifə layiq olmayan Təhsil Nazirliyi yox, abituriyentlərimiz, övladlarımızdır.

Təəssüf ki, onlara gerçək təhsili Təhsil Nazirliyinin tabeliyindəki məktəblərdən daha çox repetitorlar, özəl kurslar verir və bunu DİM-in başında duranlar da gözəl bilirlər. Buna baxmayaraq, öz heyflərini aylarla, illərlə çəkdikləri zəhmət qarşılığında bu cür anormal imtahanla qarşı-qarşıya qalan və nəticədə xəyal qırıqlığı, stres yaşayan abituriyentlərdən çıxırlar.

Onu da qeyd edək ki, DİM-in sualları həddən artqıq ağırlaşdırmasının səbəbini qurumun daha çox abituriyenti ali təhsil müəssisələrinə qəbul imtahanlarının ikinci mərhələsinin ikinci cəhdində iştiraka məcbur etməyə çalışması ilə bağlayanlar da var. Məlumdur ki, ali təhsil müəssisələrinə qəbul imtahanlarının ikinci mərhələsinin ikinci cəhdində iştirak üçün abituriyentlər DİM-in büdcəsinə 80 manat pul ödəməlidirlər. Nə qədər çox abituriyent ikinci cəhdə iştirak edərsə, publik hüquqi şəxs olan DİM-in büdcəsinə də bir o qədər çox vəsait daxil olar. Məhz bu səbəbdən qəbul imtahanlarına olimpiadalarda belə rast gəlinməyəcək qədər çətin sualların salındığı bildirilir.

DİM-ə bu səlahiyyəti kim verib və bu qurum öz ağlına, kefinə uyğun imtahan sualları salmaqda hansı həddə qədər sərbəstdir? Bu qurumun qeyri-adekvat addımları nə vaxta qədər davam edəcək? Bunun hansısa hüquqi, inzibati tənzimlənməsi varmı və varsa, necə həyata keçirilməlidir? Bütün bunlara təkcə hüquqşünaslar deyil, DİM-in işinə nəzarət edən orqanlar da aydınlıq gətirməlidirlər...

**C.Məmmədov**

# Məhkəmə Əziz Orucovun apellyasiya şikayətini təmin etməyib



**Bakı Apellyasiya Məhkəməsi “Kanal13” internet televiziyasının rəhbəri Əziz Orucovun şikayətini təmin etməyib. Bu barədə “Report”a onun həyat yoldaşı Lamiyə Çerpanova məlumat verib.**

O bildirib ki, məhkəmə iclasında Ə.Orucovun barəsində Bakı şəhərinin Səbail Rayon Məhkəməsində həbs qətimkan tədbirinin daha bir ay uzadılması ilə bağlı qərarından verilən apellyasiya şikayətinə baxılıb.

Qeyd edək ki, Ə.Orucov ötən il noyabrın 27-də saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 188.2-ci (Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti) maddəsi ilə cinayət işi açılıb və şübhəli şəxs qismində saxlanılıb.

Ötən il noyabrın 28-də Səbail Rayon Məhkəməsində keçirilən prosesdə Ə.Orucov barəsində üç ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Daha sonra ona qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə yeni ittiham irəli sürülüb.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**İctimai və dövlət maraqlarının müdafiəsi**

# İranın Azərbaycana qarşı "narkotik savaşı"

## Bu, hərbi təcavüzdən daha təhlükəlidir...

Narkotik maddələrin və insanların narkotik maddələrdən istifadə etməsinin tarixinə hətta ötəri nəzər saldıqda onlardan istifadə edilməsi sahələri, məqsədləri, miqyasları arasındakı fərqlər dərhal özünü büruzə verir.



**Narkotik maddələrdən ən qədim dövrlərdən bəri ağrıkəsici kimi, xüsusilə tibb elmi və tibbi xidmət, elm və xidmət sahəsi formalaşmamışdan xeyli qabaq, bu gün Azərbaycanda «türkə çarə» adlandırılan, tibbi yardım formasında geniş istifadə edilmişdir. Sonralar isə, xüsusilə şərq ölkələrində müxtəlif səbəblərdən insanlar onları əhatə edən reallıqlardan fikrən özünü müvəqqəti tədric etmək vasitəsi kimi istifadə edilib. Hansı ki, nəticədə onların xeyli hissəsi narkotik maddələrin aludəçisi olub, onun daimi istifadəçisinə çevrilmişlər.**

*(Əvvəli ötən sayımızda)*

Dövlət quldarlığı quruluşuna malik olan böyük və güclü SSRİ-də dinə və narkomaniyaya görə həddən artıq ağır cəzalar verilməsinə, bu sahələrə çox ciddi və sərt nəzarət edilməsinə baxmayaraq, miqyas etibarilə çox kiçik olsa da, gizli dini təbliğat və narkomaniya mövcud idi. Dövlətin öz vətəndaşlarını qul hüququ çərçivəsində təmin etdiyi cəmiyyətdə belə, öz yerini tapa bilməyənlərin bir hissəsi narkotik maddə alverinə, istifadəçisinə çevrilirdi. Lakin dövlət bu kontingentin müəyyən çərçivədən çıxmasına imkan vermirdi. SSRİ dağılıb, Azərbaycan fəlen müstəqillik qazansa da, cəmiyyətin iqtisadi, tibbi, təhsil və s. sahələri iflic vəziyyətində, dövlət qurumlarında isə anarxiya hökm sürdüyü bir vaxtda Tehranın şovinist fars molla rejimi fürsətdən istifadə edərək, "Ettelaat"ın (Dövlət təhlükəsizlik qurumu - Ş.Q.) peşəkar kardlarından komplektləşdirilmiş heyətlərinin idarə etdiyi, "İmdade İmam", "İran Mədəniyyət Mərkəzi" adı ilə maskalanmış "xeyriyyə" və "mədəniyyət" qurumları, ölkəmizdə dini təbliğat, narkotik maddələr gətirilməsi və satışı ilə məşğul olub, əldə olunan gəlirlərin hesabına terror və casusluq şəbəkəsi yaratdılar. İranın ali siyasi rəhbəri Xameneinin ölkəmizdəki şəxsi nümayəndəsi ifşa edilib, iki ölkə arasında münasibətləri kəskinləşdirməmək xatirinə Azərbaycanın dövlət rəhbərlərinin susqun razılığı ilə ölkəmizdən qaçan Ocaqnəjadın 30 il ərzində burada yaratdığı casusluq və terror şəbəkəsinə qarşı dövlət radikal tədbirlər görsə də, bütün ölkə ərazisində onun "yaradıcılığının" qalıqları adi gözlə belə seçilməkdədir.

Azərbaycanda nəinki şəhər, rayon mərkəzləri və kəndlərində şıdırğı narkotik maddələr alveri gedir, hətta bu bəla ali təhsil və hətta orta məktəblərə belə ayaq açıb. Artıq bu o deməkdir ki, əhalinin əksər hissəsinin qanuni yollarla özünün və ailə üzvlərinin minimum maddi mövcudluğunu təmin etməsi imkanından məhrum edilməsi ilə yanaşı, ölkədə narkotik alveri dövlət mexanizminin yüksək səviyyəli məmurları tərəfindən bilavasitə himayə edilir.



Digər tərəfdən, ölkədə hüquqi, inzibati, tibb, təhsil, digər istehsal və xidmət sahələrində qanunsuzluğun, rüşvətin, məmur özbaşınalığı və cinayətlərinin heç bir məhdudiyyət, sərhəd tanımaması cəmiyyəti böyük sosial partlayış həddinə gətirib, türk düşmənlərinin öz məqsədlərini reallaşdırması üçün Azərbaycanı əlverişli məkana çevirib. Narkotik maddələrin 90-95 faizinin ökləyə İran adlanan ərazidən gətirildiyini nəzərə alsaq, türkün əbədi barışmaz düşməni olan şovinist fars molla-faşizmi ilə hər hansı bir danışıqlar vasitəsilə bunun qarşısını almaq, heç olmasa bu "narkotik hücumu"nu bir qədər səngitmək mümkün deyil. Hətta bu barədə Tehran rejimi ilə müəyyən yazılı razılaşma əldə olunduğu halda belə, bu razılaşma hökmən, ancaq kağız üzərində qalacaq.

Dünya ağalığı uğrunda birincilik mübarizəsində ABŞ-ın ən real və təhlükəli rəqibinə çevrilmiş Çin dünyanın ən böyük və qüdrətli ölkəsi olub, özünün də iqtisadi və bir çox sahələrdə ondan asılı olan ABŞ-la siyasi münasibətlərində bu günə dünyada ən bahalı, daşınmasına nəzarətin ən çətin olan və ən güclü narkotik vasitə olan fentanildən bu ölkəyə təzyiq və siyasi alver vasitəsi kimi istifadə edir.

ABŞ-da mövcud olan kapitalizm quruluşu mahiyyət etibarı ilə Çində olan dövlət feodalizmi quruluşundan daha yüksək iqtisadi-ictimai quruluş olsa da, ölkədə mövcud olan bir sıra reallıqlar Çinin ABŞ-a fentanil vasitəsi ilə ciddi zərbə vurmağa imkan verir.

Birincisi, kapitalizm quruluşunun inkişaf potensialı Çindəki dövlət feodalizmi quruluşundan xeyli çox olsa da, kapitalizmin mahiyyətindən irəli gələn cəmiyyətin əks qütblərdə cəmləşməsi dərəcəsi ABŞ-da son həddədir.

İkincisi, ABŞ-da bu qütbləşmənin dərəcəsini azaltmaq, yumşaltmaq üçün heç bir əsaslı tədbir görülmür. Orada işsizliyə görə müavinət verilməsi mexanizmində bir çox naqisliklər mövcuddur. Digər xeyriyyə xarakterli tədbirlər qütbləşmə səviyyəsini azalda bilməz.

Üçüncüsü, Azərbaycanda olduğu kimi, ABŞ-da narkomaniyanı doğuran, daha dəqiq desək, ölkənin iqtisadi sistemində mövcud olub, ictimai sistemlərində əks olunan səbəblərlə deyil, onun nəticələrilə mübarizə aparılması Don Kixotun yel dəyirmanları ilə vuruşması anlamındakı səmərəni verir. ABŞ-da narkomaniyanın geniş vüsət almasının digər səbəbləri də var.

Çində isə ABŞ-la müqayisədə ümumilikdə inkişaf potensialı daha məhdud olan dövlət feodalizmi quruluşu olmasına baxmayaraq, ölkədə cəmiyyətin qütbləşməsi dərəcəsi ABŞ-dan çox aşağı səviyyədədir. ABŞ-da əhalinin sayının Çinin əhalisinin sayından 5 (beş) dəfəyə yaxın az olmasına baxmayaraq, Çində işsizliyin səviyyəsi ABŞ-dan aşağıdır. Həmçinin, ABŞ-da işsizliyə görə verilən müavinəti miqdarı mütləq rəqəmlə Çində işləyənlərə verilən əmək haqqından çox olsa da, istehlak malları, xidmətlərin qiyməti ABŞ-la müqayisədə dəfələrlə az olduğundan aşağı təbəqənin sosial durumu Çində daha sabit və qənaətbəxşdir. Çinin daxili siyasətində nisbi sosial tarazlaşdırma, xarici siyasətində yumşaq güc tətbiq edərək, hələlik hərbi toqquşmalardan kənar durması da Çinin durumunu gücləndirən əhəmiyyətli amillərdəndir.

Əgər dünyanın ən böyük, güclü və inkişaf etmiş kapitalist ölkəsi olan ABŞ özünün iqtisadi-ictimai quruluşunda mövcud olan naqisliklərdən irəli gələn səbəblərə görə hətta planetin digər yarımkürəsində, ondan minlərlə km uzaqda mövcud olan Çinin narkotik həmləsindən "nokdaun" vəziyyətinə düşürsə, həm də bu hücumdan inzibati tədbirlər vasitəsilə yaxa qurtara bilmirsə, böyük ortaq sərhəddi olub, özündən qat-qat güclü iqtisadi, hərbi, texniki və s. imkanlara malik, vəhşi və barışmaz düşməni olan şovinist fars molla faşizminin narkotika hücumu Azərbaycan üçün Çinin ABŞ-a narkotika hücumundan bir neçə qat daha təhlükəlidir.

Belə ki, ABŞ-ın özündə və həmsərhədd qonşu ölkələrində narkotik alveri ilə məşğul olan iri və güclü mafioz dəstələr mövcud olsa da, ABŞ-ın dövlət quruluşu onların iri dövlət məmurları tərəfindən daim və etibarlı himayə edilməsinə imkan vermir. Digər tərəfdən, ölkə daxilində narkotik alveri sistemi heç bir dini-ideoloji sistemlərlə bağlı deyil. Azərbaycan isə bütün iqtisadi-ictimai parametrləri üzrə ABŞ-dan "fil ilə cırtdan" nisbətində zəif olması ilə yanaşı, ölkədə Tehran rejiminin rəsmi və hegemon ideoloji sistemi ilə eyni olub, rəsmi və leqal fəaliyyət göstərən, hətta dövlət tərəfindən himayə edilən dini qurum - Qafqaz Müsəlmanları İdarəsi mövcuddur. Bu idarə ölkədə sayı heç də çox az olmayan və məhz Tehran rejiminin rəsmi dini cərəyanı, şiəliyin ideoloji, mənəvi və əxlaqi əsarətində olan insanları özündə birləşdirməklə bərabər, ölkədə bu dini cərəyanın tədrisi, təbliği ilə leqal olaraq məşğuldur.

Bu gün ölkədə xeyli sayda dindarın həbs edilməsi bir çoxlarında Azərbaycanda islamfobiyanın mövcud olması haqqında səhv və əsassız fikir yaradıb. Əslində isə 30 ildən bəri Tehran rejiminin Azərbaycanda özünün casusluq, terror, narkoticarət, şovinist fars molla-faşizminin rəsmi ideoloji silahı olan şiəliyi təbliğinin məhz Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyət dairəsinə olan kontingent üzərində qurması heç də təsadüfi deyil. Tehran rejimi ideoloji cəhətdən Allahın, reallıqda isə bu ideologiyanın alverçilərinin quluna çevrilən insanları narkotik maddə aludəçilərinə çevirməklə, onları həm də sağlam düşüncə qabliyyətindən məhrum edərək özlərinin müti robotlarına çevirir, bununla da öz yırtıcı niyyətlərini həyata keçirmək üçün qurbanlıq qoyun statusunda istifadə etmək imkanı qazanmış olur. İnsanların bir hissəsini narkotik satıcılarına çevirməklə isə, onların maddi maraqlarından sui-istifadə edərək, özlərinin müdhiş cinayətkar əməllərinin reallaşdırılmasında cinayət şərikinə, sadiq nökərlərinə çevrilirlər. Bu prosesi heç bir elmi əsası olmadan Tehran rejiminin xeyrinə KİV-lərdə milletimizin, vətəndaşlarımızın mənəviyyətinin, mənəviyyatının, əxlaqının mövcudluğunu və inkişafını islam dini ilə ələqələndirən alimlərin, millət vəkillərinin, şair, yazıçı və incəsənət adamlarının populist çıxışları daha da gücləndirir.

Xarici dövlətlərin, o cümlədən Tehran rejiminin bu qəbildən olub, son dərəcə təhlükəli olan hücumlarından, eləcə də ölkə daxilində mövcud rejimin yaratdığı böyük fəsadlardan yayınmaq üçün Azərbaycan cəmiyyəti ilk növbədə daxildə monolitləşməlidir. Bu monolitləşmə bugünkü beynəlxalq şəraitdə və ölkə daxilindəki durumda ancaq mövcud iqtisdai-ictimai quruluşun, cəmiyyətdəki ifrat qütbləşməni və hakimiyyət-vətəndaş arasında otuz ildən bəri yaranıb, daim genişlənməkdə və dərinləşməkdə olan böyük uçurumu aradan qaldırıb, cəmiyyətin bütün təbəqələri arasında olan antoqonizmi neytrallaşdıraraq, onu bütöv, monolit bir hala gətirməyə qadir olan iqtisadi-ictimai quruluş qurmaqla reallaşdırıla bilər.

**Şapur QASİMİ**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Ermənistanda kilsə-hökumət qarşıdurması

Ermənistanla Azərbaycan arasında sülh prosesi - demarkasiya və delimitasiya fonunda Ermənistanın özündə ziddiyyətlərin kəskinləşməsi və Nikol Paşinyan hökuməti ilə Erməni Apostol Kilsəsi - Eçmiədzin arasında münaqişənin kəskinləşməsi ilə üst-üstə düşdü. Bu isə Ermənistanda lideri Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan olan "Vətən naminə Tavuş" revanşist hərəkatının aksiyalarının davam etməsi fonunda baş verir. Bu münaqişə artıq ona gətirib ki, baş nazir Nikol Paşinyan mərkəzi Eçmiədzində yerləşən Erməni Apostol Kilsəsini "xarici təsir agenti" adlandırıb və "məsələni onunla həll edəcəyi" ilə hədələyib.



## Mövcud rejimlə Eçmiədzin arasında qarşıdurma "xristian inqilabı" ilə nəticələnə bilər...

## Paşinyan "xarici təsir agenti" adlandırdığı Erməni Apostol Kilsəsini 2-3 ay ərzində necə çökdürməyi düşünür?..

"Erməni xalqı Romaya gedəndə təcrübəli olub və məsh olunub, Ermənistana gələndə isə təsir agentinə çevrilib. Deyəsən indiyə qədər onlar üçün heç nə dəyişməyib. Amma biz bu məsələni iki-üç aya həll edəcəyik", - deyə Paşinyan bildirib.

Bundan əvvəl isə Ermənistan Milli Məclisinin sədri Alen Simonyan bəyan etmişdi ki, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi etirazlara görə Erməni Apostol Kilsəsi vergiyə cəlb edilməlidir. Onun sözlərinə görə, dini mərasimlərin mitinqə çevrilməsi yolverilməzdir. Bundan başqa, Ermənistan hakimiyyəti "dövlətin ehtiyacları üçün" Erməni Apostol Kilsəsinin əmlakını əlindən ala biləcəkləri ilə hədələyib. Bunu parlamentdə keçirdiyi brifinqdə baş nazir Nikol Paşinyanın "Mülki müqavilə" fraksiyasının katibi Artur Ovhanisyan deyib.

"Erməni Apostol Kilsəsinin xüsusi statusu var, lakin Ermənistanda baş verən demokratik və vergi dəyişikliklərini nəzərə alsaq, ölkəmizdə dövriyyədə olan maliyyə resursları kölgədən çıxmalıdır. Bəli, kilsənin bir sıra imtiyazları var, elə ərazilər var istifadə edilmir, dövlətin müxtəlif ehtiyacları üçün istifadə oluna bilər, kilsə dövlətlə əməkdaşlıq etməli və kölgədən çıxmalıdır".

Eçmiədzin Fransa və Vatikanın xarici təsir agentləri olanlar tərəfindən "xarici agent" elan edilib. Sadəcə müxtəlif nisbətlərdə - Fransanın Eçmiədzinə təsiri daha böyükdür.

"Erməni layihəsi" və ya "Hay layihəsi" adlanan layihənin unikallığı ondan ibarətdir ki, Ermənistan layihəsinin (Vatikan və Fransa) arxasında ilkin olaraq Cənubi Qafqazdan, eləcə də Yaxın Şərq regionlarından xeyli kənarda olan qüvvələr dayanır. İndi bir çoxları başa düşürlər ki, bu, monofizit xristianların etnik cəhətdən müxtəlif dini icması əsasında süni şəkildə "millət" yaradılması eksperimenti idi. Nəticədə dini icma tamamilə uydurma və saxtalaşdırılmış tarixə malik aqressiv etno-millətçi icmaya çevrildi.

Zaman keçdikcə bu hay icmasının dindarlığı azaldı, lakin mərkəzi Eçmiədzində olan Erməni Apostol Kilsəsi hay millətinin başlıca strukturlarından biri olaraq qaldı və belə qalmaqda davam edir. Və kənar nəzarət də davam edir. Eynilə, Ermənistanın indiki qərbyönlü hökuməti kimi.

Sual yaranır: bu "agentlər arasında mübarizə" nəyə lazımdır? Bu "tamaşa" nə üçündür və onun son məqsədi nədir?

İş ondadır ki, Eçmiədzinin Ermənistan hökuməti ilə "müharibəsi" Eçmiədzin mərkəzli revanşist hökumətin hakimiyyətə gələcəyi təqdirdə Ermənistanla Azərbaycan arasında bütün sülh sazişlərinin real olaraq "qüvvədən düşməsi" riski yaradır.

Görünüşə görə, Paşinyan hökuməti ilə Eçmiədzin arasında münasibətlərin kəskinləşməsinin əsas səbəbi məhz sülh prosesinin özü olub. Ən əlamətdar məqam isə Azərbaycan və bu kəndlərin ərazisində sərhədin delimitasiyası və demarkasiyasına başlanması, Qazax rayonunda anklav olmayan 4 kəndin işğaldan azad edilməsidir. Torpaqların təhvil verilməməsi tələbi ilə keçirilən revanşist etiraz aksiyalarının başında Tavuş arxiyepiskopu Baqrat Qalstanyan durcard. Belə ki, o, bu gün artıq revanşistlər arasında ən populyar fiqura çevrilib və artıq Paşinyanın yerinə baş nazir ola biləcəyindən danışır. Digər revanşistləri də qəsdən Qalstanyanın "kölgəsinə" itələdilər.

Deməli gələcək sülh prosesi revanşistlərin hazırkı hakimiyyətə qarşı daha böyük nifrətinə səbəb olacaq ki, bu nöqtədə hazırkı hakimiyyətin Eçmiədzin təmsilçiləri ilə müqayisədə bir zəif nöqtəsi var - hazırkı kabinetin yenidən seçilməsinə ehtiyac olacaq. Təbii ki, 1979-cu ildə İranda baş vermiş "İslam İnqilabı"na ??bənzər xüsusi xidmət orqanlarının təşkil etdiyi "xristian" inqilabı nəticəsində hazırkı hakimiyyəti zorla devrilməsələr. Nəzərə alaq ki, 1979-cu il iqilabında frasnzı xüsusi xidmət idarələrinin əli olub və fransız kəşfiyyatı Ermənistanı tam nəzarətə alıb.

Belə görünə bilər ki, indiki Paşinyan hökuməti də "Fransızların və Qərbin altındadırsa", o, xüsusi təhlükə altında deyil. Lakin 1979-cu ildən əvvəl İrandakı şah rejimi qərbyönlü idi. Və belə görünür ki, bu baxımdan Fransaya "yaraşırdı". Şah rejiminin ABŞ və Qərb dövlətləri ilə razılaşmaları və anlaşmaları var idi ki, İslam İnqilabı onları sıfırladı.

Analoji olaraq, bugünkü Ermənistanda gözümüzün önündə antiklerikal hala gələn Paşinyan rejimi ilə Eçmiədzin arasında qarşıdurma "xristian inqilabı" ilə nəticələnə bilər.

Belə bir "inqilabın" lideri artıq meydandadır. Paşinyan rejiminə qarşı erməni revanşist "xristian" inqilabının getdikcə "erməni Xomeynisinin analoquna" çevrilən arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etməsi üçün artıq informasiya şəraiti yaradılıb. Və Qalstanyanın sürgünə getməyə və Parisdən geri uçmağa belə ehtiyacı yoxdur, çünki o, vəziyyəti "yerində" gərginləşdirir.

Ehtimal var ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra bütün sülh sazişləri ləğv oluna bilər. Hakimiyyətə gələn revanşistlər və ya "xristian inqilabçıları" qanlı müharibə ilə Paşinyanın 29 min kvadrat kilometrlik beynəlxalq səviyyədə tanınmış ərazilərdə qurmağı təklif etdiyi "əsl Ermənistan"dan "böyük Ermənistan" uğrunda mübarizəyə, bu "böyüklüyün" yad diyarlarda yaranmasına keçəcəklər. Fransa kimi xarici kuratorlar "odun üstünə yağ tökmək" niyyətlərini gizlətmirlər.

Burada da xatırlamaq yerinə düşər ki, Ayətullah Xomeyninin İranda hakimiyyətə gəlişi hər iki tərəfdən 1 milyondan çox qurbana başa gələn 8 illik İran-İraq qırğınına səbəb oldu.

**Ülviyyə ŞÜKÜROVA**

# Ermənistanda kütləvi həbslər...

## Həbs olunanlar arasında deputatlar, müğənnilər də var

**Ermənistanın müxtəlif bölgələrində Azərbaycanla sərhədlərin delimitasiyasına qarşı keçirilən etiraz aksiyalarında 226 nəfər saxlanılıb.**

Bu barədə erməni mediası Ermənistan Daxili İşlər Nazirliyinə istinadən məlumat yayıb.

Media iddia edir ki, saxlanılanlar arasında Ermənistan Milli Assambleyasının deputatları, ölkədə tanınmış müğənnilər və bir həkim də var. Polis həmçinin "Vətən naminə Tavuş" müxalifət hərəkatının lideri arxiyepiskop Baqrat Qalstanyanı saxlamağa cəhd edib. Etirazçılar polisə bunu etməyə icazə verməyiblər.



Ermənistanda mayın 27-də səhər tezdən Qalstanyanın çağırışı ilə nümayişlər başlayıb. Dünənki mitinqdə müxalifət onun namizədliyini Ermənistanın Baş naziri postuna - Nikol Paşinyanın yerinə irəli sürüb. Qalstanyan siyasi deyil, milli azadlıq hərəkatında iştirak etdiyini qeyd edərək, 30 illik kilsə xidmətinin dondurulmasını xahiş edib.

Bu gün səhər Qalstanyan bir gün əvvəl söz verdiyi kimi İrəvanda qara rəngli "Jeep" avtomobili ilə yolu bağlayıb. Etirazçılar paytaxtın daha bir neçə küçələrini bağlayıblar. Bundan əlavə, nümayişçilər İrəvandan Armavir, Aştərək və Sevana gedən magistral yolları, Gümrüdən gələn yolu bağlayıblar.

# Maştağa sakini polisdən şikayətçidir

## O, polis şöbəsində cibinə narkotik qoyulduğunu iddia edir

### Nizaməddin Cabbarov: "Heç bir günahım olmasa da, 1500 manat pul ödəməyə məcbur oldum və yalnız bundan sonra məni sərbəst buraxdılar"




**Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Xanlar küçəsinin sakini Cabbarov Nizaməddin Nizami oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə müvafiq qurumlara müraciət edir:**

"Mən, Cabbarov Nizaməddin Nizami oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

10.02.2022-ci il tarixdə Bakı şəhəri, Xəzər rayonu ərazisində Xəzər RPİ-nin 2-ci Polis Şöbəsinin baş əməliyyat müvəkkili İbrahimxəlil Rafiq Tofiq oğlu və həmin şöbənin əməkdaşı Nəzərli Mehman Fizuli oğlu tərəfindən heç bir səbəb olmadan saxlanılmışam. Onlar məni 2-ci Polis Şöbəsinə apararaq, orada şalvarımın cibinə narkotik vasitə qoydular və mənim narkotik vasitə istifadə etdiyimi iddia etdilər. Bu səbəbdən də mənə "narkotik vasitə istifadəçisi" kimi cinayət işi açılacağını bildirdilər.

Mən etiraz etsəm də, qarşı tərəf heç bir əhəmiyyət vermədi. Nəhayət, əsassız yerə həbs olunacağımı bildiyim üçün onların tələbini yerinə yetirməyə məcbur oldum. Belə ki, heç bir günahım olmasa da, 1500 manat pul ödəməyə məcbur oldum və yalnız bundan sonra məni sərbəst buraxdılar.

Hadisə ilə bağlı Bakı Şəhəri Xəzər Rayon Prokurorluğuna şikayət etdim. Formal olaraq yalandan araşdırma aparıldı və cinayət işinin başlanmasının rədd edilməsi haqda qərar qəbul edildi. Hazırada da Xəzər Rayon Prokurorluğu polis əməkdaşlarını müdafiə edirlər.

Nəzərinizə çatdırıram ki, indiyə qədər prokurorluqda 6 dəfə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilib. Həmin qərarları, müraciətim əsasında, məhkəmə qanunsuz və əsassız sayaraq ləğv edib.

Bunun bağlı dəfələrlə Baş Prokurorluğa və Bakı Şəhər Prokurorluğuna da müraciət etmişəm, faydası yoxdur.

Prokurorluq qəsdən təkrar-təkrar qanunsuz və əsassız qərarlar qəbul edir.


ID: 2693326

Azərbaycan Respublikası adından

QƏRAR

BAKI ŞƏHƏRİ XƏZƏR RAYON MƏHKƏMƏSİ

Bakı şəhəri İş № 6(003)-7/2024 02.02.2024-cü il

Hakim Cəfərzadə İlham Nizami oğlunun sədrliyi,
Süleymanov Bəxtiyar Zeynal oğlunun katibliyi,
Məhkəmə nəzarəti qaydasında şikayət vermiş şəxs Cabbarov Nizaməddin Nizami oğlunun iştirakı ilə,

Bakı şəhəri Xəzər rayon prokurorluğunun müstəntiqi Həsənov Heydər Xalis oğlu tərəfindən qəbul edilmiş 07.11.2023-cü il tarixli cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarından 17 saylı Cəzaçəkmə müəssisəsində cəza çəkən Cabbarov Nizaməddin Nizami oğlu tərəfindən məhkəmə nəzarəti qaydasında verilmiş şikayətə videokonfrans vasitəsilə qapalı məhkəmə iclasında baxaraq, məhkəmə

müəyyən etdi

17 saylı Cəzaçəkmə müəssisəsində cəza çəkən Cabbarov Nizaməddin Nizami oğlu şikayət ərizəsi ilə məhkəməyə müraciət edərək, Bakı şəhəri Xəzər Rayon Prokurorluğunun müstəntiqi Həsənov Heydər Xalis oğlunun 07.11.2023-cü il tarixli cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarı qanunsuz və əsassız hesab edilərək ləğv edilməsi, toplanmış material əlavə və yoxlama və təhqiqat aparılması üçün Bakı şəhər Xəzər rayon prokurorluğuna göndərilməsinə dair qərar qəbul edilməsini xahiş etmişdir.

Şikayət onunla əsaslandırılmışdır ki, Bakı şəhəri Xəzər rayon Polis İdarəsinin və 2-ci Polis şöbəsinin əməkdaşları tərəfindən qanunsuz hərəkətlərə məruz qalmağı ilə bağlı 18.04.2022-ci il tarixdə Bakı şəhəri Xəzər rayon prokurorluğuna ərizə ilə müraciət edərək araşdırma aparılmasını, müvafiq tədbir görülməsini və nəticəsi barədə ona məlumat verilməsini xahiş etmişdir. Ərizəsi ilə bağlı 25.05.2022-ci il tarixdə Xəzər rayon prokurorunun köməkçisi Həsənov Heydər Xalis oğlu tərəfindən izahatı alınmış, material üzrə məhkəmə ekspertizası təyin edilmiş, MTE və PA Birliyinin Xəzər rayon şöbəsindən 27.05.2022-cü il tarixli, 612 saylı ekspert rəyi alınmış, 28.05.2022-ci il tarixdə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilmişdir. Həmin qərar Xəzər

S/N: 007

Məhkəmə isə prokurorluq barəsində qanunamüvafiq tədbir görülməsi üçün qərar qəbul edir və məsələni Baş Prokurorluğa göndərməkdən imtina edir".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# "Polis əməkdaşı bizdən 1000 manat rüşvət istəyir"

## "Onu da əminliklə bilirəm ki, başıma gələn bütün hadisələrin arxasında qaynatam durur"




**Goranboy rayonu, Düzqışlaq kənd sakini Novruzov Vüqar Rafiq oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, polislər onu qaynatasının tapşırığı ilə tutaraq, şöbədə döyüblər:**

"Mən, Novruzov Vüqar Rafiq oğlu, yazaraq bildirirəm ki, heç bir səhvim olmadan, fevral ayının 11-də Dəliməmmədli şəhərində polislər tərəfindən tutularaq, döyülmüşəm. Buna dair əlimdə sübutlarım da var. Hətta onu da əminliklə bilirəm ki, başıma gələn bütün hadisələrin arxasında qaynatam durur.

Bildirim ki, ailə münaqişəsi zamanı bərk əsəbləşib yoldaşıma 1 şillə vurmuşam. Yoldaşım bu haqda anasına deyib, həmin gündən də gəlib qızı aparıblar. Yəni ortada ciddi bir səbəb olmadan, aramızda olan problemi böyütdülər. Yoldaşımla barışmağa da



imkan vermədilər. İndi isə tanıdığı, rüşvət verdiyi polisləri üstümə salıb, ağır işgəncələrə məruz qoyurlar.

Polis əməkdaşı bizdən 1000 manat rüşvət istəyir. Deyir ki, 1000 manat pul verin işi bağlayaq, məhkəməyə getməsin. Mənim heç bir günahım olmadan polis tərəfindən döyülürəm, həm də polisə rüşvət verməliyəm ki, məni tutmasınlar?!

Mənim polisim bu gun səhvsiz, günahsız adama işgəncələr verirsə, mən nə deyim, hara müraciət edim?! Bütün qurumlar susur. Baş Prokurorluq işə baxmır, gözləyir ki, bir dəfə də məni tutub aparıb döysünlər?! Bu qədər haqsızlıq olar?"

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.***




# 13 nəfər qarşı dələduzluq edən şəxs niyə həbs olunmur?

## "Müstəntiq deyir ki, Bərdə Rayon Məhkəməsinin sədrinə yaxın adamıdır... qaynatası da imkanlı şəxsdir"




**Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, 1-ci massiv ev 11-də yaşayan Muradov Əsgər Həbib oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, Beyləqan rayonu, Tatalılar kənd sakini Əliyev Mirzə Qoşqar oğlu, o da daxil olmaqla, 13 nəfər vətəndaşı dələduzluq yolu ilə aldadıb, şikayətlərinə baxılmır:**

"Mən, Muradov Əsgər Həbib oğlu, bildirirəm ki, Beyləqan rayonu, Tatalılar kənd sakini Əliyev Mirzə Qoşqar oğlu özünü yüksək çinli məmur kimi təqdim edərək, mən də daxil olmaqla, dələduzluq yolu ilə 13 nəfərin külli miqdarda pulu mənimsəyib.

Azərbaycan Respublikası CM-178.2.2 və 178.2.4 maddələri ilə Bərdə Rayon Prokurorluğu Əliyev Mirzə Qoşqar oğlunun 230410052 nömrəli cinayət işi barədə bizə ittiham aktı göndərmişdir. Bir aydan çoxdur ki, Bərdə Rayon Məhkəməsi müxtəlif rayonlardan olan 13 nəfər zərərçəkənin hamısını ilkin məhkəmə iclasına dəvət etsə də, təqsirkar Əliyev Mirzə Qoşqar oğlu həmin iclasda iştirak etməmişdir.

Biz Bərdə Xalq Məhkəməsinin hakiminə etirazımızı bildirdikdə, o, dedi ki, 3 günə Əliyev Mirzə Qoşqar oğlunun həbs olunması üçün lazımi orqana təqdimat verəcək. Lakin bir aydır ki, Əliyev Mirzə Qoşqar oğlu həbs edilməyib.

Mən Bərdə Rayon Polis Şöbəsinin baş müstəntiqi S.Babazadəyə bu barədə zəng etmişəm. O, deyir ki, Bərdə İnzibati Məhkəməsi tərəfindən bizə sorğu verilməyib ki, həmin şəxsi axtarışa verib, məhkəməyə təqdim edək.

Qeyd edikm ki, Mirzə Əliyev professional dələduzdur, təkrar həbs edilir və sərbəst buraxılır. Özü də, müstəntiqin dediyinə görə, Bərdə Rayon Məhkəməsinin sədrinə yaxın adamıdır. Məlumata görə, qaynatası da imkanlı şəxslərdən biridirg

Mən 13 nəfər zərərçəkən adından sizin sayt vasitəsilə lazımi orqanlardan xahiş edirəm ki, bizə kömək etmək üçün öz imkanlarını əsirgəməsinlər. Belə dələduzlar həbs olunmalıdır ki, başqa şəxsləri də aldatmasınlar.

Onuda bildirim ki, 3 ay bundan əvvəl Bərdə RPŞ-nin baş müstəntiqi S.Bayramzadə bizi (13 nəfəri) təcili çağırdı ki, Əliyev Mirzə Qoşqar oğlunun qayınatası Həbibulla (Balakən rayonunda yaşayır) sizin pulunuzu verəcək. Biz, 13 nəfər zərərçəkən, müxtəlif rayonlardan uzaq yolu gedib 12 saat Bərdə RPŞ-də gözlədik, amma həmin şəxs gəlib çıxmadı. Müstəntiqə isə bildirmişdi ki, mən hüzur yerindəyəm.

Müvafiq qurumlardan xahiş edirəm ki, bu məsələnin həllini tapması üçün bizə köməklik göstərinlər".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

# Rusiya Qafq

## "Ermənistan-Rusiya əlaqələrinin böhranı Cənubi Qafqaz üçün təhlükəsiz mühit formalaşdırır"

Bugünlərdə mətbuata açıqlama verən Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, mayın 24-də Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin məsləhətləşmələr üçün Moskvaya çağırılıb. Qeyd edək ki, siyasi ekspertlərin əksəriyyətinin fikrincə, səfirin geri çağırılmasının əsas səbəbi Ermənistanın baş naziri Nikol Paşinyanın bir neçə gün əvvəl Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı səsləndirdiyi fikirlər olub.

Bu barədə danışan rusiyalı tanınmış hərbi ekspert İqor Korotçenko isə bildirib ki, 25 may şənbə və 26 may bazar günləri ABŞ və Fransanın Ermənistandakı səfirliklərinin siyasi şöbələrinin və hərbi attaşelərinin əməkdaşları üçün iş günü elan edilib. Onun sözlərinə görə, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin və Fransa kəşfiyyatının İrəvandakı rezidenturası əməkdaşları üçün iş günü elan edilib. Korotçenko əlavə edib ki, Ermənistanın baş nazirinin soyadının necə olması Rusiyanı maraqlandırmır: "Burada vacib olan bir neçə məqam ancaq budur: Ermənistan KTMT, MDB və Aİİ-nin üzvü olaraq qalır, Rusiyanın Ermənistandakı hərbi və sərhəd mövcudluğunu tam olaraq saxlayır. Eyni zamanda, AB-nin müşahidə missiyasının Ermənistandan tamamilə çıxarılması, ABŞ-ın İrəvandakı səfirliyinin əməkdaşlarının sayının iki dəfə azaldılması vacibdir. Həmçinin İrəvanın Fransa silahlarının alınması ilə bağlı bütün müqavilələri ləğv etməsi, eləcə də FTX-nin sərhəd xidmətinin nəzarətində olan Zəngəzur nəqliyyat dəhlizinin açılması, Ermənistanda rus dilinin tədris olunduğu məktəblərin aktiv inkişafı da bura aiddir. Bütün bunlardan həm erməni xalqı, həm də Ermənistan iqtisadiyyatı faydalanacaq".

Yeri gəlmişkən, onu da nəzərinizə çatdıraq ki, Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon işğaldan azad olunmuş Laçın rayonuna səfər edib. Belə ki, Laçına Azərbaycanda fəaliyyət göstərən diplomatik korpus nümayəndələrinin səfəri çərçivəsində gedən Fransanın səfiri Ann Buayon burada bərpa işləri başladıqdan sonra hansı nailiyyətlərin əldə olunduğunu görmək istədiyini bildirib: "Bu mənim Laçına ilk gəlişimdir. COP29-a həsr olunmuş tədbir keçirilir və hesab edirəm ki, bu, Azərbaycanın COP29 sədrliyinin prioritetləri haqqında daha çox öyrənmək üçün yaxşı fürsətdir. Bu bizə bu regionun bərpa olunan enerji, turizm və kənd təsərrüfatı istiqamətində bərpası haqqında daha çox məlumat əldə etməyə imkan verdi". COP29 çərçivəsində əməkdaşlıq barədə isə Fransa səfiri qeyd edib ki, belə bir əməkdaşlıq artıq var: "COP29-un Prezidenti bir həftə əvvəl Parisdə idi. COP29 qlobal bir hadisədir, dünyanın və uşaqlarımızın gələcəyi üçün COP29-un uğurlarını dəstəkləməliyik".

### "Azərbaycanın Cənubi Qafqazda yeni siyasi nizam yaratması, regional əməkdaşlığa üstünlük verməsi Parisin geri addım atması ilə nəticələnir"

Beləliklə, mövzu ilə bağlı mövqeyini "Hürriyyət"lə bölüşən Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Fransa səfirini işğaldan azad olunmuş Laçına səfərə vadar edən amil rəsmi Parisin Azərbaycanla münasibətləri normallaşdırmaq istəyindən irəli gəlir: "Laçına diplomatik korpus nümayəndələrinin səfəri çərçivəsində gedən Fransanın səfiri Ann Buayon Fransa Xarici İşlər Nazirliyinin razılığı ilə gedib. Bir müddət bundan əvvəl rəsmi Paris Azərbaycandan səfirini məsləhətləşmələr üçün geri çağırmışdı. Fransa səfiri nəinki geri qayıtdı, hətta Azərbaycanın işğaldan azad edilən ərazilərinə səfər etdi. Bildiyiniz kimi, Fransa müharibədən sonra işğaldan azad olunmuş ərazilərə diplomatlarının səfərinə icazə vermirdi. Daim ermənilərin Qarabağa qayıdışını qabardırdı. Nikol Paşinyan Fransanın apardığı bu siyasətin Ermənistanın maraqlarına cavab vermədiyinin fərqindədir. Və demək olar ki, Parislə əməkdaşlıqdan belə, imtina etdi".



Məhəmməd Əsədullazadə: "4 kəndin geri qaytarılması Rusiyanın Ermənistanda uzun illər boyu həyata keçirdiyi anti-Azərbaycan siyasətinin fiaskosudur"



Elxan Şahinoğlu: "Bakıdan erməni cəmiyyətinə dəqiq mesaj göndərilməlidir ki, Paşinyanı devirib sərhəd razılaşmalarından imtina etsələr, bu onlara baha başa gələcək"

Milli Cəbhə Partiyasının sədr müavini hesab edir ki, Nikol Paşinyan Fransanın təhriki ilə hərəkət etsəydi, o zaman bu, Ermənistan üçün ağır nəticələrə səbəb ola bilərdi: "Düşünürəm ki, bir müddət sonra Fransa səfiri Şuşa və Xankəndiyə də səfər edəcək. Ermənistanla Azərbaycan arasında buzlar əridikcə, həmçinin dörd kəndin Azərbaycana danışıqlarla geri qaytarılması Fransanı geri addım atmağa sövq etdi. Fransa məhz Ermənistan vasitəsilə regionda yeni müharibədə maraqlı idi. Ermənistanın baş naziri Nikol Paşinyan isə vaxtında qərar verərək Fransa liderinin deyil, Azərbaycan prezidentinin təkliflərinə üstünlük vermiş oldu. Qənaətimcə, Azərbaycanla Ermənistan arasında çərçivə sazişi imzalandıqdan sonra Fransa Azərbaycanla münasibətləri inkişaf etdirəcək. Hətta Azərbaycanla Fransa arasında hərbi-texniki əməkdaşlıq haqqında anlaşma əldə edilməsi də mümkün ola bilər. Yəni, Azərbaycanın Fransadan yeni silahlar alması da mümkündür".

Politoloq qeyd edib ki, Azərbaycanın Cənubi Qafqazda yeni siyasi nizam yaratması, regional əməkdaşlığa üstünlük verməsi Parisin geri addım atması ilə nəticələnir: "Təbii ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Fransanın avantürasına getməyərək praktiki siyasətə üstünlük verməsi onun hakimiyyətinin inkişafına gətirib çıxardı. Rusiyanın Ermənistandakı səfirini geri çağırmasına gəlincə, bunun dörd kəndin Azərbaycana qaytarıldığı gün baş verməsi heç də təsadüfi deyil. Çünki Rusiya hər zaman Azərbaycanla Ermənistan arasında ikitərəfli danışıqların əleyhinə və sülhə mane olub. Bu səbəbdən də hesab edirəm ki, dörd kəndin Azərbaycana qaytarılması Rusiyanın Ermənistanda uzun illər boyu həyata keçirdiyi anti-Azərbaycan siyasətinin fiaskosudur".

### "Əgər Nikol Paşinyan Baqratla görüşsə, etirazlara siyasi yük verəcək və keşişin siyasi mövqeyi güclənəcək"

Məhəmməd Əsədullazadə bildirib ki, Kreml kilsəni önə verməklə sərhədlərin delimitasiya və demarkasiyasını bəhanə gətirərək, Ermənistanda kütləvi etiraza nail ola bilmədi: "Əgər kilsə etirazla ciddi nəticə əldə etsəydi, onda Azərbaycanla razılaşmalar ləğv ediləcəkdi. Nikol Paşinyanın kilsəyə açıq hücum edəcəyini elan etməsi, Rusiyanı üstüörtülü şəkildə ittiham etməsi tərəflər arasında böhrana gətirib çıxardı. Əslində, Nikol Paşinyan Rusiya səfirinin geri çağırılmasından məmnundur. Düşünürəm ki, Paşinyan tezliklə ölkəsinin KTMT-dən və MDB-dən çıxdığını elan edə bilər. Ümumiyyətlə, Ermənistan-Rusiya əlaqələrinin böhranı Cənubi Qafqaz üçün təhlükəsiz mühit formalaşdırır".

Politoloq onu da əlavə edib ki, Ermənistandakı siyasi etirazlar Azərbaycanla sülhə qarşıdır: "Ermənistanda keşiş Baqrat Qalstyanın baş nazirliyə namizədliyi irəli sürülüb. O Ermənistanda itaətsizlik etiraz aksiyası elan edib və Paşinyanla görüşüb istefasını tələb edəcək. Əgər Nikol Paşinyan keşiş Baqratla görüşsə, etirazlara siyasi yük verəcək və Baqratın siyasi mövqeyi güclənəcək. fikrimcə, keşiş Baqrat Qalstyan Nikol Paşinyanla görüşə ona görə cəhd edir ki, siyasi etirazlara diqqət çəksin və hakimiyyətin onunla hesablaşdığını nü-

# qazdan sıxışdırılır...

## "Paşinyan Fransanın təhrikilə hərəkət etsəydi, bu, Ermənistan üçün ağır nəticələrə səbəb ola bilərdi"



Politoloq hesab edir ki, bütün bunlara baxmayaraq, münasibətlərdə geri dönüş mümkündür: "Bunun üçün Fransa prezidenti və bu ölkənin hökumət üzvləri Cənubi Qafqaz siyasətinlərinə yenidən baxmalıdırlar, bölgə və Azərbaycanla bağlı açıqlamalarında korrekt ifadələrdən istifadə etməlidirlər. Fransanın Azərbaycandakı səfiri Ann Buayonun digər ölkələrin diplomatlarıyla birgə Laçına səfəri və bölgədəki dağıntıları etiraf etməsi Parisin siyasətində dəyişikliyə işarədirmi?

mayiş etdirsin. Təbii ki, Paşinyan onun bu planından xəbərsiz deyil. Məhz bu səbəbdən də keşişlə görüşüb ona siyasi xal qazandırmayacaq. Əgər Paşinyan keşişlə görüşsə, onun istefasını tələb edəcək. Necə ki, 2018-ci ildə Paşinyan Serj Sarkisyanla ilk görüşündə ondan istefasını tələb etmişdi. Baqrat eyni ssenarini təkrarlamaq istəyir. Bu da onu göstərir ki, prosesdə Serj Sarkisyanla Robert Köçaryan da var və onlar bu yolla siyasi revanşa cəhd edirlər". Milli Cəbhə Partiyasının sədr müavininin sözlərinə görə, kilsəyə xalqın və Qərbin dəstəyi olmadığı üçün Baqrat Qalstyanın rəhbərlik etdiyi etiraz aksiyası uğursuzdur: "Düşünürəm ki, Paşinyan lokal şəkildə güc tətbiq etməklə etirazçıların sıralarını azalacaq. Ümumiyyətlə, Ermənistandakı etiraz aksiyalarının müsbət nəticəsi regionun təhlükəsizliyini və bu ölkənin daxili siyasətini təhdid edə bilər".

### "Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə bağlı son açıqlaması Putinin narazılığına səbəb olub"

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bu qənaətdədir ki, Rusiya Ermənistandakı səfirini Nikol Paşinyanın "2020-ci ildə Ermənistana qarşı 44 günlük müharibənin hazırlanmasında iki KTMT ölkəsi iştirak edib" açıqlamasına görə geri çağırıb: "Paşinyan "2 dövlət" dedikdə Rusiya və Belarusu nəzərdə tutub. Paşinyanın bu açıqlaması Kreml sahibi Vladimir Putinin narazılığına səbəb olub və Rusiya prezidentinin təlimatıyla xarici işlər naziri Sergey Lavrov nümayişkənarə şəkildə Sergey Kopırkini müvəqqəti geri çağırıb. Vladimir Putin Nikol Paşinyanın son açıqlamasıyla "qırmızı çizgiləri" aşdığı qənaətindədir. Putin Paşinyana xatırladıb ki, müharibənin qızğın çağında ona zəng edib və atəşkəs təklifi edib. Paşinyan Putinin təklifinə razılaşmayıb və nəticədə Qarabağın tamamı Azərbaycanın nəzarətinə keçib. Putin ona görə Paşinyana bu xatırlatmanı edib ki, Azərbaycanın Qarabağ üzərində suverenliyini bərpa etməsinə görə Paşinyan Rusiya hakimiyyətini deyil, özünü qınamalıdır. Həmin dövrdə atəşkəs bizim də maraqlara cavab vermirdi, işi yarımçıq qoymaq olmazdı. Bu baxımdan, Paşinyanın atəşkəsə razılaşmaması Azərbaycanın da maraqlarına uyğun idi".

### "Görünən odur ki, Makron hələ Azərbaycanla münasibətləri normallaşdırmağa hazır deyil"

Fransa-Azərbaycan münasibətlərinə də toxunan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri bildirib ki, iki ölkə arasında əlaqələrin gəngiləşməsinə Fransa prezidenti Emmanuel Makronun açıqlamaları və siyasəti səbəb olub: "Ona görə də münasibətlərin normallaşması üçün ilk addımı Makron atmalıdır. Fransada bir-birini əvəz edən prezidentlər ermənilərə simpatiyalarını gizlətməsələr də, onlar Azərbaycanla münasibətləri gərginləşdirmir, ölkəmiz əleyhinə açıqlamalar vermirdilər, Makrona qədər iki ölkə arasında münasibətlərdə dialoq o biri dövlətlərlə olduğu kimi idi. Makron prezident seçildikdən sonra Ermənistana səfər etdi, Azərbaycana gəlmədi. Makron və onun komandası İkinci Qarabağ müharibəsi və ondan sonrakı mərhələdə anti-Azərbaycan siyasətini üst səviyyəyə qaldırdı. Bu arada, Makronun Bakıya etdiyi telefon zənglərinin münasibətlərə müsbət təsiri olmadı. Çünki Makron hər zəngdən sonra yenə Azərbaycan əleyhinə açıqlama verdi. Azərbaycan ərazi bütövlüyünü və Qarabağ üzərində suverenliyini bərpa edib. Ermənistan hökuməti Azərbaycanla sülh sazişinin imzalanmasında maraqlı görünür, sərhədlər müəyyənləşir, kəndlər qaytarılır. Tərəflər arasında birbaşa danışıqlar müsbət nəticələr verir. Belə olan halda Ermənistan hökumətinin Fransanın anti-Azərbaycan siyasətinə ehtiyacı yoxdur. Əksinə, bu siyasət rəsmi İrəvana rəsmi Bakı ilə danışıqlarla lazımsız problemlər yarada bilər. Belə olan halda Parisin Azərbaycan siyasətini korrektə etməsinə zərurət yaranır. Paris Azərbaycanın Yeni Kaledoniya mövzusunda fəallığından narahatdır. Rəsmi Bakı Fransanın Yeni Kaledoniya siyasətini sərt tənqid edir, kolonial siyasətə qarşı Bakı platforması mövcuddur. Paris Azərbaycanın daxili işlərinə qarışanda, Fransada prezidentliyinə namizədlərdən biri işğal dövründə qanunsuz olaraq Xankəndiyə gələndə, Fransa parlamenti Azərbaycan əleyhinə sənədlər qəbul edəndə fransalı siyasətçilər və diplomatlar anlamalıydılar ki, bunun bumeranq effekti olacaq. Evi şüşədən olan başqasına daş atmamalıdır".

Politoloq hesab edir ki, bütün bunlara baxmayaraq, münasibətlərdə geri dönüş mümkündür: "Bunun üçün Fransa prezidenti və bu ölkənin hökumət üzvləri Cənubi Qafqaz siyasətinlərinə yenidən baxmalıdırlar, bölgə və Azərbaycanla bağlı açıqlamalarında korrekt ifadələrdən istifadə etməlidirlər. Fransanın Azərbaycandakı səfiri Ann Buayonun digər ölkələrin diplomatlarıyla birgə Laçına səfəri və bölgədəki dağıntıları etiraf etməsi Parisin siyasətində dəyişikliyə işarədirmi? Bunu zaman göstərəcək. Laçına səfər azdır. Fransa səfirinin amerikalı həmkarı kimi Şuşaya səfəri də vacibdir. Aydındır ki, bu səfərin icazəsini Paris verməlidir. Erməni lobbisi Fransada olduğu kimi ABŞ-da da fəaldır, Konqresdə möhkəm dayaqları var. Ancaq bu ABŞ-ın rəsmi strukturlarının Azərbaycanla əməkdaşlıqdan imtinasına səbəb olmur, Bakının Vaşinqtonla və Fransanın qonşusu Almaniya ilə sıx dialoqu və əməkdaşlığı mövcuddur. Paris tərəfdaşları olan Vaşinqton və Berlindən geri qalmaq istəmirsə, Azərbaycan siyasətini köklü şəkildə dəyişməlidir. Bir çox dövlət lideri 28 may Respublika günü münasibətilə Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Fransa prezidentinin Azərbaycan Prezidentinə təbrik məktubundan xəbər yoxdur. Demək, Makron münasibətləri normallaşdırmağa hələ hazır deyil".

Paşinyanın helikopterinin Vanadzor (Böyük Qarakilsə) stadionuna məcburi eniş etməsinə gəlincə, Elxan Şahinoğlunun sözlərinə görə, Ermənistanın baş naziri az qalmışdı ki, İran prezidenti İbrahim Rəisinin taleyini təkrarlasın: "Paşinyanın ölməsini istəyən güclər Ermənistanda da var, xaricdə də. Paşinyanın terror nəticəsində həlak olması Azərbaycanın və Türkiyənin maraqlarına cavab vermir. Paşinyan nəhayət, bölgədəki reallıqları anlayıb və onunla məsələləri yekunlaşdırmaq lazımdır. Bu səbəbdən də Bakıdan erməni cəmiyyətinə dəqiq mesaj göndərilməlidir ki, baş nazir Nikol Paşinyanı devirib sərhəd razılaşmalarından imtina etsələr, bu onlara baha başa gələcək. Elə bilməsinlər ki, danışıqlar sıfır nöqtəsinə qayıdacaq".

**Vazeh BƏHRAMOĞLU**




# Quşçuluq fabrikinin işçiləri rəhbərlikdən şikayətçidir

## "Məzuniyyətə görə verilən pulları əlimizdən alırdılar..."

**Xızı rayon sakini Hüseynov İbrahim Nurəddin oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, həyat yoldaşı ilə birgə işlədikləri Giləzi-Sitalçay quşçuluq fabrikinin rəhbərliyi onların haqqına girib:**




"Mən, Hüseynov İbrahim Nurəddin oğlu, bildirirəm ki, 2015-ci ilin oktyabr ayında həyat yoldaşımla birlikdə Giləzi-Sitalçay quşçuluq fabrikində rəsmi olaraq işə qəbul olunmuşuq. 2016-cı ilin mart ayının 11-də fabrikdə quşlara xəstəlik düşdüyünə görə işdən azad olunmuşuq.

Bundan sonra, bir müddət fabrikdə iş dayandırıldı. 2016-cı il, may ayının 10-da yenidən fabrik fəaliyyətinə davam etdi və bizi də işə aldılar. Sonradan, 19 oktyabr 2019-cu ildə yenidən işdən azad olunduq.

Həmin iş müddətində nə məzuniyyət hüququmuzdan istifadə etmişik, nə də özləri bizə məzuniyyət veriblər. 3 günlük icazə lazım olanda bizə sərt şəkildə bildirirdilər ki, get, qayıtma.

Maaşımız cəm 250 manat idi. Vergidən yayınmağa görə onun 180 manatını kartla, qalanını isə nəğd verirdilər. İşlədiyimiz ərəfədə fabrikdə qalırdıq. İl tamam olanda bizim maaşa əlavə, yəni artıq pul vururdular, sonrakı ay isə həmin pulu bizdən çıxırdılar. Sonradan başa düşdük ki, bu pul bizə məzuniyyətə görə verilirmiş, lakin rəhbərlik onu əlimizdən alırdı. 4 ildir Əmək Müfəttişliyinə şikayət edirik, ancaq heç bir nəticə yoxdur.

6 ay əvvəl Prezident Admnistrasiyasında, Prezidentin köməkçisi Natiq Əmirovun qəbulunda oldum. Görüşdən sonra Əmək Müfəttişliyinə göştəriş verdi və Yasamalda yerləşən 25 nömrəli idarəyə çağırıldım. Orada bütün olanları olduğu kimi danışdım. 1 aydan sonra müfəttişlikdən bizə məktub gəldi. Məktubda yazılmışdı ki, biz şirkətə məktub göndərmişik, ancaq şirkət müfəttişliyə düzgün cavab vermədiyi üçün şikayətiniz Respublika Prokurorluğuna göndərildi.

Artıq 6 aydır ki, sakitçilikdir və fəhlənin haqqı tapdalanır. Bütün müvafiq qurumlar bu məsələyə susursa, deməli, rəhbərliyin arxasında güclü bir qüvvə durur.

Sizdən xahişimiz odur ki, şikayətimizi ictimailəşdirin, insaf sahibi olan hər hansısa bir qurum bəlkə bir tədbir görər".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.***

# "Əvvəlcə evimizi, daha sonra balamızı itirdik"

## Gədəbəy sakinləri evlərinin qanunsuz yollarla əllərindən alındığını iddia edir




**Gədəbəbəy rayonu, Novoivanovka kənd sakinləri Sultanov Barat Müseyib oğlu və Sultanova Rayisə Allahverdi qızı tərəfindən "Hürriyyət-"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçilər evlərinin saxta yollarla satıldığını iddia edirlər:**

"Biz, Sultanov Barat Müseyib oğlu və Sultanova Rayisə Allahverdi qızı, yazaraq sizdən xahiş edirik ki, problemimizi işıqlandırasınız.

5 ildir ki, rahatçılığımız yoxdur. Gədəbəbəy rayonu, Novoivanovka kəndində rus milləti yaşayan vaxtlardan bir ev almışıq. Lakin ev saxta yollarla başqa adama da satılıb.

Evin kupçası və arayışı var. Əlimizdəki sənədlərə baxmayaraq, məhkəmə evimizin əlimizdən alınmağına dair qərar verib. Saxta torpaq şəhadətnaməsi olan qarşı tərəfin xeyrinə qərar qəbul edib.

Apellyasiya Məhkəməsi də qərarı araşdırmadan, qüvvədə saxladı.

Nəticədə, 2 təqaüdçünü - yoldaşımı, məni, eləcə də 1-ci qrup əlil qızımı və hərbi xidmət vaxtı 2-ci qrup əlil olan oğlumu çölə atdılar. Çox əziyyətlər çəkdik, əziyyətlərə dözməyən qızım dünyasını dəyişdi. Həyatımız məhv oldu, dünyamız dağıldı.

Göz görə-görə saxtakarlığa yol veriblər. Belə ki, 2015-ci ildə ləğv olunmuş möhürü həmin torpaq şəhadətnaməsinə vurublar. Bir çox orqanlara müraciət etsək də, bu saxtakarlığı göz yumulur.

Onu da qeyd edim ki, oğlumun adına olan pay torpağını da, onun xəbəri olmadan adından çıxarıblar. Oğlumun əlində sənədləri var. Biz bu iki işimizdə də haqq-ədalət görə bilmədik. İllərlə əziyyət çəkib aldığmız evimizi qanunsuz yerə əlimizdən aldılar. Qərarı verən hakim ya sənədə ümumiyyətlə baxmayıb, ya da qarşı tərəflər aralarında alış-veriş olub. Çünki saxta sənədi təsdiqləyən hakim haqqında "ədalətli" sözünü demək olmaz.

Biz bu yaşımızda birinci evimizi, daha sonra balamızı itirdik. Səbəb isə qanunsuz, ədalətsiz qərar oldu.

Sizin qəzet vasitəsilə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdən xahiş edirik ki, hakimlərin qərarlarını araşdıran bir qurum yaradılsın. İnanın ki, bu zaman bir çox qanunsuzluqlar ortaya çıxacaq. Kimin adamı var, kimin pulu var, məhkəmələr hər zaman onların xeyrinə qanunazidd qərarlar qəbul edir. Başqa işləri bir kənara qoydum, bizim işimizdəki saxtakarlıq göz qabağındadır".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların mövqeyini dərc etməyə hazırıq.***







# "Azəryolservis" sakinlərin pay torpağına gedən yolu zəbt edib

## "Saleh Məmmədova şikayətlərimizi bildirmişik, lakin heç bir tədbir görülmür"

**Siyəzən rayonunun Yenikənd sakinləri tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Sakinlər iddia edirlər ki, sahələrinə gedən yolu "Azəryolservis" ASC zəbt edib:**



"Biz, sakinlər bildiririk ki, pay torpaqlarımız olan sahələr "Azəryolservis" ASC tərəfindən qanunsuz olaraq zəbt edilib. "Azəryolservis" ASC-nin rəhbəri Saleh Məmmədova şikayətlərimizi bildirmişik, lakin heç bir tədbir görülmür.

Yolumuz zəbt olunduğundan, pay torpaqlarımıza getmək üçün əlavə 700 metr məsafə qət etməliyik.

Onu da qeyd ediək ki, 700 metr yolu getsək də, oradakı arxdan yolu də keçmək olmur.

Biz kənd camaatına göz görə-görə zülm verirlər. Müraciət etdiyimiz qurumlar şikayətimizə baxmır".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

Bu tragikomediya on ildən çoxdur ki, davam edir. Beş-on boşboğazın fitvası ilə dədə-babasının naxırçı, kolxozda hesabdar, adi müəllim, milisioner, sürücü, çayçı və s. işləmiş cavanlar bir-birlərinə "bəy" deyə müraciət edəndə çoxu bunu ciddi qəbul etmədi. Amma aylar keçdi, həftələr ötdü, bu eybəcər mərəz yox olmaqdansa xərçəng metastazı kimi hər tərəfə sirayət etdi və axırda (bu belə də olmalı idi!) gül kimi kübar titulu beş-on həpəndin sayəsində gülüş, istehza hədəfinə döndü.

# BƏY KİMDİR?

# Qurbanəli bəyin varisləri

## Bilmirəm bəyliyi neynir bu çölün heyvanı...

Təxminən doqquz il bundan əvvəl haradansa peyda olmuş bir "şumeroloq" qəzetlərin birində bəyan etmişdi ki, heç demə, bu titul miladidən çox-çox əvvəl qədim Şumerdə mövcud imiş(Maşallah, şumeroloq sarıdan bəxtimiz gətirib, kimi dindirsən özünü qədim dövr üzrə mütəxəssis sayır. Amma belə "şumeroloq"dan xahiş etsən ki, xəritədə Qədim Bospor çarlığının, ya da Tanqut dövlətinin vaxtilə harada olduğunu göstərsin, o barmağını ya Naxçıvanın üzərinə qoyacaq, ya da Gədəbəyin). Aradan çox keçmədi ki, digər bir alimnüma da Ankarada yaşayan hansısa alimə istinad edərək elan etdi: Biz türklər ucdan tutma bəyik, vəssalam!

Allah bədnəzərdən saxlasın, bilməmişdik, demə bizdə nə rəiyyət olub, nə baqqal, nə tacir, nə nalbənd, nə münəccim, xülasə, dəllək, süpürgəçi, kisəçəkən zad da olmayıb. Hamı adlı-sanlı kübar və zadəgan! Çoxu bu yeni dəb elə nikbin nəzərlərlə baxırdı ki, elə bil hamımız bəy olandan sonra erməni nəinki Qarabağ, hətta Göyçəni, Vedini, Basarkeçəri, Zəngəzuru, boşaldacaq, "Mersedes"lərdə gəzən, imarətlər ucaldan, axşamlar da eyş-işrətdən qalmayan qeyrətli kişilərimiz cihada qalxacaq və hamı dinə, imana gələcək.

Bu sətirləri yazanda yadıma tamam bir başqa əhvalat düşdü. Kəndlər bir-bir ermənilər tərəfindən zəbt olunur, şəhərlər top, raket atəşinə tutulur, məmləkətdə kreslo uğrunda boğuşma özgə cürə vüsət alanda bir ovuc avantürist əlifba məsələsini ortalığa atdı.

Meydan notlarına uymuş bir qrup şəxs fikirləşmədi ki, əsrlər boyu "bəy" adının şərəfini qılıncla qorumuş əsl zadəganlar, əsl kişilər, məhşər günü, din və millət xainlərinin üzlərinə tüpürüb deyəcəklər: - Əcdadların məskən və mədfənini, millətin namus və qeyrətini qoruya bilmirdinizsə, dininizi, imanınızı beş günlük dünyanın bir günlük gəda kefinə satdınızsa, heç olmasa bəyliyimizə toxunmayaydınız. Gədadan bəy olmayıb, olmayacaq da! Tfu sizin üzünüzə!

...Rusiya Azərbaycanı işğal edəndə əllərində rəsmi şəcərə-şəhadətnamə (bəzən lap fərman-humayunlar) olan bəylər az idi. Onlar ağır günlərdə xanların kiçik hərbi dəstələrinə başçılıq edir, döyüşə gedir, yaşayış məntəqələrinin müdafiəsinə baxırdılar. Vətənimizin əsl kübarları qeyri-bərabər vuruşmalarda birinci olaraq "Allahu Əkbər!" nərəsi ilə Rusiyanın draqun, qusar, qrenadyor polklarının üzərinə atılır və birinci olaraq şəhadətə çatırdılar. Milli zadəganlarımızın əsl faciəsi ölkə işğal olunandan sonra başladı. Bəziləri baş götürüb İrana, Türkiyəyə qaçdı, bəziləri isə qaçaqçılıq hərəkatına qoşularaq son nəfəslərinə qədər vuruşdular. Bir qismi isə canını dişinə tutaraq mühitə uyğunlaşmağa çalışdı. Çarizm milli zadəganları müflisləşdirmək üçün hər cür tədbirlərə əl atırdı. Yadellilərə xidmət edəcək, kölə təbiətli zümrənin yaranması, Qurbanəli bəy kimi rəzillərin artıb törəməsi üçün geniş şərait yaradılırdı. Zəifləyib tənəzzülə uğramış, İranın, Türkiyənin üzərinə sel kimi axan xaçpərəst ordularının sıralarında qulluq edən, sinələrini "Vladimir", "İgidliyə, sədaqətə görə", "Müqəddəs Anna" və s. ordenlər bəzəyən namərdlərimizin sayı günbəgün artırdı. İllər gəlib keçəcək, vaxtilə işğalçılara can-başla qulluq edib, imperiyadan "medallar" almış, Şeyx Şamilin müridlərini, türk qazilərini, Abbas Mirzənin igid sərbazlarını, partizan-qaçaqlarımızı məhv etməkdə Yermolovlara, Paskeviçlərə, Madatovlara, Kotlyarevskilərə və digər əli qanlı cəlladlara kömək göstərmiş satqınların xələfləri gah babalarının müsavatçı olmalarından, gah da fədai kimi istiqlaliyyət uğrunda mübarizə aparmalarından dəm vuracaqlar(-Yüzlərlə şəhid sağ ikən bəziləri 60-cı illərdən bir yerdə mücadilə aparmasından basıb-bağlayırsa, daha nə deyəsən? Yaxşı deyiblər, utanmasan oynamağa nə var ki? Biri demir ki, sənin nə işlərlə məşğul olduğunu Cümşüd Nuriyev çoxdan deyib və hətta lazım gəlsə, məhkəmə qabağında sübut etməyə hazır olduğunu bildirib. Başqalarının da o illərdə nə etdiyini mən lap əla bilirəm, bu barədə bəzilərinin üzünə də demişəm, qəzetlərdə də yazmışam. Sözümün canı budur ki, müqavimət olmayanda, hamı susanda, əbləhlik, həyasızlıq, yalan, ayaq açıb yeriyir).

Ən dəhşətlisi budur ki, uzun illər əsl həqiqətdən məhrum edilmiş, son illərdə isə tamamən təklənmiş "mən"ini öz keçmişində axtaran xalqa tarix yerinə, indi də surroqat təklif olunur. Özü də bu zinakarlığı törədənlər başqalarının qan bahasına qazandığı şanlı titullara sahib çıxan hərbgu nadanlardır.

> Ən dəhşətlisi budur ki, uzun illər əsl həqiqətdən məhrum edilmiş, son illərdə isə tamamən təklənmiş "mən"ini öz keçmişində axtaran xalqa tarix yerinə, indi də surroqat təklif olunur. Özü də bu zinakarlığı törədənlər başqalarının qan bahasına qazandığı şanlı titullara sahib çıxan hərbgu nadanlardır...

...İllər keçir, çar üsul-idarəsi Qafqazda məqsədinə tədricən də olsa çatırdı. Əsil-nəcabətinin qədim tarixi olan nəsillərin ya kökü kəsilirdi, ya da cırlaşıb sıradan çıxırdı. Əsil nəcabətinin qədim tarixi olan nəsillərin ya köksü kəsilirdi, ya da cırlaşıb sıradan çıxırdı. Xəcil olmuş xələflərə ancaq bəy adlanmaq hüququ qalırdı. Amma bütün bunlara baxmayaraq bəy titulu uzun müddət öz şöhrət və cazibədarlığını qoruyub saxlamışdır. Xaçpərəst işğalçılara quyruq bulamaqla mal-dövlət qazanmış lotu-potu xüsusi bəylik şəhadətnaməsi almaq üçün dəridən qabıqdan çıxırdı. Yayda imperiyanın əyan-əşrəfi Şimali Qafqazın kurortlarına axışanda, Azərbaycanın da şələ-külələrini qızılla, misilsiz xəlilərlə, nadir zərgərlik əşyaları doldurmuş varlıları ora üz tutar, xüsusi zümrə imtiyazları almaq üçün sinov gedərdilər. S.Ə. Şirvani özünün ölməz həcvlərindən birində yaxşı deyirdi: Bilmirəm, bəyliyi neynir bu çölün heyvanı...

Əvvəlcə komendantlar, sonrakı dövrdə isə general-qubernatorlar sadiq nökərlərinə bəylik şəhadətnaməsinin verilməsinə nail olurdular. Təqdimat sənədlərinin bütün instansiyalarından keçib imperatorun şəxsi dəftərxanasına gedib çıxması asan proses deyildi. Amma nə aldıqları imtiyaz və vəzifələr, nə də sərvətləri günortadan sonra bəylik adı alanları əsl kübarların və xalqın şəbədəsindən, istehzasından qoruya bilmirdi. Elə buna görə də sonrakı dövrlərdə Murtuz ağa Muxtarov, Şəmsi Əsədullayev, Musa Nağıyev kimi məşhur milyonçular öz şərəflərini üstün tutaraq pul gücünə "bəy" titulu almağa cəhd göstərmədilər. Sovet hakimiyyəti illərində isə zadəganların, şəcərəli, bəylərin, görkəmli din xadimlərinin başlarına nələrin gətirildiyini bilirik.

Bəzi nadanlar orta əsrlər tarixindən iki qəpiklik biliyə malik olmadan harada gəldi gəvəzələyirlər ki, guya xaqanlar, sultanlar, əmirlər, şahlar barigahlarında təşkil olunan mərasimi və divanlarda dərbara "bəylər" deyə müraciət ediblər. Ağ yalandır!

Osmanlı imperatorluğunda bütün təbəqələr, istər sərəskər, sədrəzəm olsun, istərsə də adi rəiyyət bütün əhali sultanın qulu sayılırdı. İmperiya divanı çağırılanda da sultanlar bilavasitə olaraq əhli-məclisə heç bir vaxt bəylər sözünü ünvanlamayıblar. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlament iclaslarında bircə dəfə də olsun "bəylər" sözü müraciət kimi işlədilməyib. Çox vaxt salonda "Rusca danışın!" tələbi eşidilibmiş... (Acı da olsa, bu dəhşətli həqiqətdir!)

Samani xanədənin başlamış Qacarilərə qədər olan dövrdə barigahlarda, ərkanihərbin cəm olduğu məşvərətlərdə məclis əhlinə necə cürə müraciət forması olub, amma heç bir mənbədə göstərilmir ki, süpəhsalarlar, şahzadələr rəisül-rüəsalar, əmirlər "bəy", "bəylər" sözlərini dillərinə gətiriblər. Ancaq sonrakı dövrlərdə bu müraciət forması eyni zümrədən olanların yığıncaqlarında işlədilib. Onu da nəzərə almaq lazımdır ki, istər adlı-sanlı kübarların, istərsə də məmləkət ərkanının cəm olduğu yerə nəinki rəiyyətdən olanlar, hətta döyüş meydanlarında ad-san qazanmış, bürclər almış, qalalar fəth etmiş alplar, pəhləvanlar, hətta beş yüz nəfərlik hərbi birləşmənin başçıları yaxın buraxılmırdılar. Saray etiketinə ciddi əməl olunurdu. Ad, titul məsələsi isə daha qəliz idi. Teymur kimi Fateh cürət edib "xan" titulun ömrünün sonuna qədər götürmədi. Çingiz xanədanının izi-tozu qalmasa da, amma böyük "Yasa"nın tələblərinə hörmət edilirdi. "Yasa"ya görə "xan" tituluna ancaq çingizlər layiq sayılırdılar. Teymur isə çingizlərdən deyildi. Elə buna görə də ərəb mənşəli "əmir" adı ilə kifayətlənməyi üstün tutdu. Bir çox əcnəbi mənbələrdə Teymurun adının əvvəlində "kuraqan" sözü də işlədilir. Burada da təəccüblü heç nə yoxdur. Teymur əsil-nəcabətin çingizilərlə bağlı güman edilən dul qadınla evləndiyi üçün "Yası" əsasında özünü dövlət sənədlərində "kürəkən" (rus və Avropa mənbələrində isə bu söz "kuraqan" kimi verilib) yazdıra bilərdi. Necə ki, Osmanlı imperatorluğunda sultanın qızları ilə evlənmiş şəxslərə adi "damad" sözü şanlı-şövkətli titul kimi bəxş olunurdu.


Firuz HAŞIMOV

...Türk ulduzlarında, ümumiyyətlə orta əsr şərqində hər gədə-güdəyə bəy demirdilər. Bu anlayış özündə həm cəngavər fədakarlığını, həm də vətənə, xalqa sədaqət, həm də heç bir şeylə ölçülməyən islam aristokratizmini birləşdirmişdi.

İndi 1826-cı ildə Əlincə qalasının xarabalıqlarında kiçik dəstəsi ilə altı ay rus qoşunlarına qarşı kişi kimi vuruşub şəhid olmuş Laçın bəy də bəy, bizim bəzi "qəhrəmanlar" da "bəy"?! OQPU-nun, NKVD-nin ölüm düşərgələrində min işgəncə ilə qətlə yetirilmiş, məzarları belə it-bat olmuş, əhli-əyalları qırılmış istiqlalçı cəngavər Azərbaycan kübarlarına da bəy deyim, qırğın gecəsi qorxudan Yusif Səmədoğlunun evindən burnunu çölə çıxarmayan, Qarabağla bağlı onun üzünə deyilən neçə-neçə ittihamın birinə cavab verə bilməyənləri də bəy adlandırım?!

Bizim qondarma bəylər, vaxtilə cahangiranə dövlətlər yaratmış, dünyaya meydan oxuyan, mədəniyyəti ortaya qoymuş cənnətməkan ərənlərin fatehlərin, kübarların yox, "intilgent", Həsənqulu bəylərin, qəzetçi Rza bəylərin, "Diptat" bəylərin Qurbanəli bəylərin, layiqli varisləridirlər.



## "Uşaqları 6-7 yaşı tamam olandan sonra narkomaniyanın zərərləri haqda maarifləndirmək lazımdır"

# "Yeni qurulan hər bir ailə məcburi qaydada psixoloji dəstək almalıdır"

## Kliniki psixoloq Günay Hüseynli: "Narkotik asılılığında psixoloji faktor çox önəmli rol oynayır"

Narkomaniyanın qarşısının alınmasında onu yaradan səbəblərin araşdırılması və aradan qaldırılması faktoru mühüm yer tutur. Söhbət xüsusilə sosial-psixoloji səbəblərdən gedir. Psixoloqlarla müsahibələrə üstünlük verməyimiz də təsadüf deyil. "Azad Həyat" Reabilitasiya Mərkəzinin psixoloqu Günay Hüseynli ilə söhbətimiz də bu qəbildəndir və onunla müsahibəmizdə məsələnin dərinliklərinə varmağa çalışdıq.

*(Əvvəli ötən sayımızda)*

***- Günay xanım, bir halda ki, problemin qismən ailədən qaynaqlandığını düşünürüsünüz, sizcə, o zaman ailə psixoloqlarına ehtiyac yaranmırmı?***

- Bəli. Cəmiyyətdə bu cür sağlam seçim etməyən insanların olmaması üçün biz mütləq ailə psixoloqunun olmasını tətbiq etməliyik. 5 il ərzində mütəmadi olaraq, kişi və qadın psixoloji dəstək almalıdır. Bir çox məqamlar var ki, onları öz aralarında həll edə bilmirlər. Bu zaman ailə psixoloqunun olması çox önəmlidir. Dövlət bunu tələb etməlidir ki, siz gedib mütləq qeydiyyatdan keçməlisiniz. Və mütləq hesabat verilməlidir ki, bəli, bu cütlük beş il ərzində mütəmadi psixoloji dəstək alıb. Bu təməl qoyulduqdan sonra, gələcəkdə artıq bir çox şeyin həll yolunu özləri tapa biləcəklər.

Digər tərəfdən, yaxın iki il ərzində evlənən cütlüklərin ailəsində artıq övlad dünyaya gəlir. Övladın sağlam mühitdə böyüməsi üçün öncə ata və ana sağlam olmalıdır. Onlar həm də sağlam münasibətdə olmalıdırlar ki, övlad da doğulanda sağlam tərbiyə alsın. Tutaq ki, narkotik qəbul edən ata, ana necə sağlam olmalıdır? Burda da yenə ailə psixoloqunun rolu çox önəmlidir. Mən bunu daim vurğulayıram, çağırış edirəm ki, bu, mütləqdir. Şərt olaraq hər bir yeni qurulan ailəyə ailə psixoloqu məcburi tələb olunmalıdır.

***- Ümumiyyətlə, narkomanların müalicəsində psixoloji faktor nə dərəcədə rol oynayır?***

- İlk öncə "narkoman" deyil, "narkotik asılısı" deyək, bunun adı bu cürdür. Narkotik asılılığında psixoloji faktor çox önəmli rol oynayır. İnsanın şəxsiyyət olaraq darmadağın olduğu bir prosesdə onun şəxsiyyətinin yenidən bərpası üçün mütləq psixoloji müdaxilə olmalıdır. Bu, olmalıdır ki, o, yenidən həyata sağlam insan olaraq geri dönüş edə bilsin.

Yenə də deyəcəm, "Azad Həyat" Reabilitasya Mərkəzində 3 ildir ki, fəaliyyət göstərirəm. Həmişə də valideynlərə deyirəm ki, reabilitasiya mərkəzini doğru-düzgün seçmək üçün nəyə fikir vermək lazımdır... Protokol üzrə iş prinsipi var. Reabilitasiya mərkəzinin həm psixatrı, həm klinik psixoloqu olmalıdır. Bu mərkəzlər əsasən "12 addım" adlı psixoloji, mənəvi proqram vasitəsilə müalicə tətbiq edirlər. Bu, Amerikadan gəlmiş müalicə metodudur, son 3 ildir ki, Azərbaycanda da istifadə olunur. "12 addım" psixoloji, mənəvi proqramdır. Narkotik və alkoqol asılılarının müalicəsində tətbiq olunan, təsir gücü olan yeganə proqramdır ki, xroniki xəstəliklər bunun vasitəsilə müalicə olunur. Burada yenə də önəmli olana fikir verməliyik ki, bu psixoloji, mənəvi proqramdır. Təbii ki, bu, bir komanda işidir. Reabilitasiya Mərkəzinin təsisçisinin özü bu proqrama bələd olmalı, özü bu proseslərdən keçmiş olmalıdır. Özünün ayıqlığı olmalıdır. Biri var, kor-koranə istifadə edirsən, biri də var, sən psixoloji olaraq sən lazımi psixoloji dəstəyi almısan, sağalırsan. Sağalma yolunda olaraq, ayıq qalmaq çox önəmlidir. Ona önəm vermək lazımdır ki, Reabilitasiya Mərkəzinin təsisçisinin özü "öndə gedən" kimi digər narkotik asılısına nümunə olmalıdır ki, bax, məndə alınıb, bacarmışam, siz də bacaracaqsınız. Yəni bu bir "mayak"dır, özünəinamdır.

Burada psixoloqun olması da çox önəmli faktordur. Daha sonra Reabilitasiya Mərkəzində müalicə alan insan üçün komandada kimlər olmalıdır, onu vurğulamaq istəyirəm. Baş proqram koordinatoru, konsultantlar, kimlər ki, bu yolu keçiblər, müalicə yolunu bilirlər. Bunların müalicə alınanlara ciddi dəstəyi olur. Ən önəmli prinsplərdən biri isə budur ki, mütləq psixoloq olmalıdır. Psixoloq onların travmaları ilə işləyir, korreksiya edir, onlara sağlam motivasiyanı öyrədir. Psixoloqun onların sağlam düşüncələrinin formalaşmasında çox böyük rolu var. Yenə də deyirəm, bu, psixoloji, xroniki xəstəlikdir. Odur ki, burda klinik psixoloq da mütləq olmalıdır. Çünki bu, önəmli faktordur. Onların müalicəsində çox böyük rol oynayır.

***- Sizcə, narkomaniyanın zərərləri ilə bağlı maarifləndirmə işi hansı yaşdan aparılmalıdır? Ümumiyyətlə, burada orta məktəblərin rolu nələrdən ibarət olmalıdır?***

- Belə demək olarsa, uşaq danışmağa başlayıb, söhbət etməyi öyrəndiyi andan. Düşünürəm ki, məhz həmin vaxtdan ailənin içindən ata-ana bununla bağlı danışmalı, tədbirlər aparmalıdır. Narkomaniyadan, onun fəsadlarından əziyyət çəkən insanları uşaqlara elə göstərmək lazımdır ki, uşağın şüuraltında bir qorxu olsun. Qəbul etsin ki, bəli, narkotik istifadə edənin axırı yoxdur. Bunu valideyn vaxtında, sağlam şəkildə izah edərsə, başa salarsa, məncə, daha düzgün olar. Məncə, uşaqlar bu tərbiyəni, maarifləndirməni birinci evdən almalıdır. Biri var, bu hadisə çöldə baş verir, uşaq kor-koranə nəisə öyrənir, biri də var, o, artıq agahdır. Yəni uşaq o yola addım atmamışdan, narkotiki əlinə almamışdan öncə bunun nə olması haqqında məlumatı olmalıdır. Bu baxımdan, hətta 6-7 yaşı tamam olandan sonra uşağı maarifləndirmək lazımdır.

Məktəbdə də ilk siniflərdən başlamaq lazımdır. Məktəb psixoloqları onları bir araya toparlayıb, maarifləndirməlidir. Müəllim də xüsusi tədbirlər təşkil etməli, səhnələr hazrılamalı, video-roliklər göstərilməlidir. Sağlam şəkildə ötürülməlidir ki, şagirdlər maariflənsin.

Bəzən deyirlər ki, vaxtından tez gərəksiz şeyləri niyə öyrədək, onların niyə gözünü açaq?! Xeyr, elə biz çox şeyin üstünü ört-basdır etdiyimiz üçün cəmiyyət olaraq, bu problem yaşayırıq. Onsuz da indiki dövrün uşaqları hər şeyi tez əldə edirlər, sosial şəbəkələr vasitəsilə öyrənirlər. Ona görə, birinci növbədə mütləq özümüz maarifləndirici olmalıyıq. Yəni öncə özümüz maariflənməli, daha sonra övladımızı maarifləndirməliyik. Təbii ki, burada da məktəbin, müəllimin, psixoloqun çox böyük rolu var.

Mən həmişə vurğulayıram ki, mütləq məktəblərdə psixoloqlar vaxtaşırı, məsələn, ayda bir dəfə valideynlərlə görüş keçirməli, onlarla maarifləndirici söhbət etməlidir. Mən xüsusi vurğulayım ki, həm ata, həm də anan mütləq gəlib iştirak etməlidirlər. Psixoloq onlarla söhbət aparmalıdır. Onların ailədə olan münasibətini öyrənməlidir. Valideynlərin övladları ilə münasibətlərində problem varsa, onu psixoloqa danışmalıdırlar. O, bunu korreksiya etməlidir.

Mən belə düşünürəm ki, məktəbin bir yox, bir neçə psixoloqu olmalıdır. Bir psixoloq bu işi təkbaşına görə bilməz. Məktəbdə bir neçə psixoloq olarsa, daha çox fayda verər. Ona görə, burda mütləq şəkildə məktəbin də çox böyük rolu var. Amma, bird aha qeyd edim ki, öncə ailə maarifləndirməlidir, paralel məktəb də öz işini görməlidir.

***- Orta məktəblərdə fəaliyyət göstərən psixoloqların qeyri-peşəkarlar, bəzi hallarda hətta təhsili olmayan evdar qadınlar olduğu haqda iddialar var. Belə vəziyyətdə məktəblərdə yetərli təbliğat işi aparmaq mümkündürmü?***

*(Ardı var)*

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

Hürriyyət
# Toplum
SİZİN ÜÇÜN QƏZET
№20 (3311) 28 May / 2024-cü il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# Cəlilabadda torpaq qalmaqalı

## Rayon sakini oğlunun şərlənərək həbs olunduğunu iddia edir

**Cəlilabad rayonu, Zərbiəlli kənd sakini Məmmədov Hüseyn Qulam oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Saytımız vasitəsilə müvafiq qurumlara müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**







"Mən, Məmmədov Hüseyn Qulam oğlu, yazaraq sizdən xahiş edirəm ki, səsimi aidiyyəti qurumlara və ictimaiyyətə çatdırasınız.

Bildirirəm ki, mənə dövlət tərəfindən əvəzsiz verilən 10 hektar 85 sot əkin sahəsini Gülməmmədli kənd sakini Səfərov Hüseyn Qürbət oğlu mənimsəməyə çalışır. O, Əmlak Komitəsinin Cəlilabad rayon şöbəsinin sədri Mircəlal müəllimin köməyilə otuz ilə yaxın əkdiyimiz torpaq sahəsini ələ keçirmək istəyir. Polis kapitanı Elvin müəllim də mənə təzyiq göstərir, deyir ki, bu yer Səfərov Hüseynindir.

Mən etirazımı bildirərək akta qol çəkmədim, dedim ki, əlimdə çıxarışım var. Elvin müəllim mənə bildirdi ki, sənin sənədlərin ləğv olunub. Sual verdim ki, bəs mənim arpam nə olacaq?!.. Onlar yenə bildirdilər ki, sən bu yeri zəbt etmisən, bu torpaq Gülməmmədli kənd sakini Səfərov Hüseynin xüsusi mülkiyyətidir.

Qeyd edim ki, Səfərov qardaşlarının respublikada əli o qədər uzundur ki, həmin torpaq sahəsi ilə bağlı saxta mütəxəssis rəyi alıblar. Rəydə qeyd olunur ki, guya, Hüseynov Azaddan aldığı 3 hektar 15 sot torpaq sahəsini mən zəbt etmişəm. Sağ olsun, müstəntiq Elməddin müəllim işi düzgün araşdırıb və bu rəyi əsassız sayaraq, ləğv etmişdir.

Dəfələrlə mənim yerimi ölçdürüb, guya "artıq əkmişəm" kimi qeyd ediblər.

06 aprel, 2024-cu ildə mən, Məmmədov Əkbər, qardaşım Məmmədov Azər və anam Məmmədova Sidiqə ərazidə olarkən gördük ki, Gülməmmədli kənd sakini Səfərov Hüseyn, torpaq mütəxəssisi Fuad adlı şəxs və kənd bələdiyyəsinin sədri Alovla birlikdə yeri ölçürlər. Atama zəng edib bildirdim ki, yenə yeri ölçürlər. Daha sonra Hüseynə yaxınlaşıb soruşdum ki, əmi, sən bizdən nə istəyirsən? O, mənə dedi ki, torpağın qalan hissəsini verin, ya da elə edəcəm, sizi kənddən çıxaracaqlar.

Qardaşım ona dedi ki, bizim dolanışığımız bu torpaqdan çıxır, öz torpağımızı kimsəyə verməyik. Həmin yerdə anamı, məni və qardaşımı döydülər. Üçümüz də xəsarət aldıq. Sən demə, o, bizdən qabaq gedib diş həkimindən rəy alıb ki, guya döyülüb. Həkimin adı Raufdur. Görün nə qədər özbaşınalıq var. Rauf həkim rəydə yazıb ki, guya, biz onun biləyini sındırmışıq. Bu işi isə 200 manat müqabilində ediblər. Nəticədə isə bizi bu səbəblə polisə verdi. Oğlum Məmmədov Azəri 48 saat müddətinə həbs etdirdi. Lakin ədalətli hakim məhkəmə zalından oğlumu Azad etdi.

8 may 2024-cu il tarixində Apellyasiya Məhkəməsində şikayətə baxıldı. Məhkəmə naməlum səbəblərdən oğlum Məmmədov Azəri həbs etdi və o, hazırda həbsdədir.

Hüseyn Səfərov kənd arasında danışır ki, əgər qalan yeri mənə verməsələr, ailənin o biri üzvlərini də həbs etdirəcəm.

Səfərov Hüseyn sənədləri saxdalaşdırmaqla məşğul olur. Saxta Ukrayna diplomu alıb, Tatlar deyilən ərazidə 5 il kənd sovetinin sədri işləyib.

300 metrlik 2 mərtəbəli ferması, özünün yaşayış evi, təndirxanası və bir neçə yardımçı yaşayış evi var. Həm imkanlıdır, həm də vəzifəli adamlarla tanışlığı var.

Buradan səlahiyyətli şəxslərə işimin araşdırılıb, aydınlaşmağında mənə köməklik göztərəsiniz".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***



# İki il əvvəl qəza törədən sürücü sığorta şirkətindən narazıdır

Mobil Məmmədov iddia edir ki, ondan "sığorta pulu" çox alınır, amma...

**Azərbaycan Respublikası vətəndaşı Məmmədov Mobil Sərdar oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, sığorta şirkəti insanları aldadır:**

"Mən, Məmmədov Mobil Sərdar oğlu, bildirirəm ki, 2 il bundan öncə qəza törətmişdim. Özümü günahsız hesab etsəm də, məni günahkar çıxardılar. Nəticədə, icbari sığortam olduğundan, qarşa tərəfə dəyən zərəri sığorta şirkəti ödədi. Mən isə öz zərərimi qarşıladım...

Bu hadisədən sonra, artıq 2 ildir ki, icbari sığortanı illik 60 manatdan 225 manata qaldırıblar. Maraqlıdır, əgər vurduğumuz maşına dəyən zərəri biz ödəyiriksə, o halda niyə sığorta pulu ödəyirik?! Qanun həqiqətən də belədirmi?".

Məsələ ilə bağlı ekspert Elməddin Muradlı ilə həmsöhbət olduq. O, bildirdi ki, bu məsələ "İcbari sığortalarlar haqqında qanun"la tənzimlənir: "Qanunun tələbi onunla bağlıdır ki, "Bonus-Malus" sistemi tətbiq edilsin. Yəni bir adam sığorta ili müddətində hər hansı qəza törətmirsə, o şəxs növbəti il "Bonus" sisteminə düşür. Yəni onun sığortası ümumi məbləğdən aşağı olur.

"Malus" sistemi isə odur ki, əgər sürücü qəza törədibsə, sığorta ödənişi edirsə, o, artıq cəriməyə düşür. Yəni bu da bir növ sığortanın cərimәsidir. Ola bilər ki, sürücülərin çoxu bundan məlumatsızdır. Burada qanunsuz heç bir məsələ yoxdur. Qəza törədən sürücü, sadəcə, öz cəzasını çəkir. Məsələ bundan ibarətdir. Yəni bu, qanunda öz əksini tapan məslədir".

Ekspert deyir ki, şikayətçi "Malus" sisteminə düşdüyü üçün növbəti il sığortanın haqqı bahalaşıb: "Bu sistem bir növ sürücüləri məsuliyyətli olmağa dəvət edir. Qəza törətmədikdə daha az ödəniş edirsən deyib, stimullaşdırırlar ki, çalışın qəza törətməyin".

**Jalə FAMİLQIZI**

# Salyan sakinləri "Azərqaz"ı ittiham edir, amma...

## Eldəniz Vəliyev: "Abonentlərə satılan qaza hava vurulduğu haqda şayiələr bu sahəni bilməməkdən irəli gəlir"

**Salyan rayonunun bir qrup sakini tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Sakinlər "Azəriqaz" İstehsalat Birliyinin (İB) rəhbərliyindən şikayətçidir. Onlar iddia edirlər ki, "Azəriqaz" İB tərəfindən qaz borularına mavi yanacaq əvəzinə, hava vurulur:**

"Salyan rayonu, Marışlı magistralının üstündəki qaz borularına "Azəriqaz" şirkəti tərəfindən kompressor vasitəsilə hava vurulur. Üstəlik, bəzi yerlərə hazırda qaz da verilmir. Bu səbəbdən, vəziyyət olduqca acınacaqlıdır. Qaz verilən evlərdə isə, maviz yanacaq əvəzinə, hava gəlir. Bir sözlə, "Azəriqaz" istədiyi kimi "at oynadır".

Məsələ ilə bağlı "Azəriqaz" İB-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyevlə söhbətləşdik. O dedi ki, vətəndaşların narahatçılığı əsassızdır: "Bu üsül dünyada tətbiq olunur. Alternativi olmayan bir üsüldur.




Deməli, abonentlərə verilən qaz mənbəyindən bağlanır, müəyyən məsafədən, hansı ki, təmizlənəcəyi ərazidən, əvvəlcədən açılmış deliklərə yüksək atmosferli, təzyiqli hava kütləsi vurulur. Mənsəbdə də yenə həmin dəlik olur, yüksək atmosferli hava kütləsi boru xəttində olan su kütləsi və digər qırıntıların hamısını xaric edir. Bu proses baş verən zaman abonentlərə verilən qaz bağlanır. Həmin abonentlər hava kütləsini görmürlər. Həmin ərazi təmizləndikdən sonra, yəni hava kütləsi tam çıxarıldıqdan sonra dəliklər bağlanır və ərazidə yaşayan abonentlərə qaz verilir".

Bu baxımdan, E.Vəliyev şikayətçilərin "Azəriqaz"ın vətəndaşların "cibinə girdiyi" haqda iddialarını qəbul etmir: "Hansısa bir abonentin cibinə girmək, ona satılan qaza hava vurmaq kimi şayiələr, böhtan və s. bu sahəni bilməməkdən irəli gəlir. Yəni biz dəfələrlə müxtəlif platformalarda, müxtəlif səviyyələrdə bunun niyə baş verdiyini izah etmişik. Boruda sızma olan zaman da hava kütləsindən istifadə olunur. Mən abonentlərdən xahiş edirəm ki, sosial şəbəkələrdə savadsız, qeyri-peşəkarcasına hava kütləsi ilə bağlı yazılan və deyilənlərə inanmasınlar. "Azəriqaz" İstehsalat Birliyi çox yaxşı dərk edir ki, hansısa yüksək atmosferli hava kütləsi boru xəttinə vurularsa və bu maye yanacaqla, qazla birgə obanentin mənzilinə gedərsə və istifadə olunarsa, çox böyük təhlükələrə, partlayışlara səbəb ola bilər. Bu baxımdan, "Azəriqaz" İstehsalat Birliyində hansısa bir region, hansısa bir idarə özbaşına və yaxud da hansısa məqsədlərlə bağlı bu addımı ata bilməz".

**Jalə FAMİLQIZI**

Az yaşım yoxdur, tarixi şəxsiyyətləri (təkcə siyasətçiləri nəzərədə tutmuram) görmüş yaxud barələrində oxumuşam: bəzən əlinə qələm alan adam keçmişi bilmədən, oxumadan bəlağətli cümlələr işlədir və ya nifrət dolu ibarələr tapır. Beləliklə, dupduru suya daş atıb bulandırır. Gələn yeni nəsil belə mənzərəyə baxıb öz mülahizəsini irəli sürür: həqiqəti deyən də olur, tərif edən də!





Allahverdi Eminov

# Tarix və şəxsiyyət: olduğu kimi

## (Elçinin "Mir Cəfər Bağırov kim idi?" məqaləsi haqqında düşüncələrim)

***Kütlələr heç vaxt həqiqəti bilmirlər, onlar ancaq illüziyaları tələb edirlər, çünki illüziyasız yaşaya bilmirlər.***

**Z.Freyd**

Mən dördüncü sinifdə oxuyurdum, kənddə (Salyan rayonunun Qırmızıkənd stansiyasını dustaqlar tikdiyi çoxailəli binada yaşayırdıq, atam stansiya rəisiydi 1946-1976. "Rodina" markalı radio yalnız bizdəydi: 1948 Stansiya növbətçisi Paşa adlı kişi tələsik bizə gəldi. "Eminov, Stalin xəstələnib, vəziyyəti öyrənək" - deyib radionun qarşısında oturdu... Səhəri eşitdim ki, (05.03.1953) Stalin vəfat etmişdir. O da yadımdadır - paravozlar "dahi rəhbərin" ölümü münasibətilə beş dəqiqə fit verdilər. SSRİ matəmə batdı, xarici dövlətlərin başçıları Moskvaya - Stalinlə vidalaşmağa gəldilər. Çexoslavakiyanın Kommunist Partiyasının rəhbəri Kliment Kotvald Stalinin cəsədilə vidalaşarkən onun dodaqlarından öpmüş, yolda - qatarda gedərkən qəflətən vəfat etmişdi. Sonralar şayə yayıldı ki, Stalini zəhərləmişlər, öpərkən zəhərlənmişdir.

İ.Stalinin zəhərlənməsi səbəbi bu hadisədən sonra yayıldı. Bu işi Xruşşov, Bulqanin və Malenkovun əliylə L.P.Beriya həyata keçirmişdir. Çox sonralar xatirələrdə oxudum ki, L.P.Beriya həbsxanada olarkən ona yemək gətirən əsgərdən soruşurmuş ki, mənim həbsimdən Bulqaninin, Malenkovun xəbəri varmı? Beləliklə, İosif Stalinin ölümündən sonra ilk öncə hərbiçilər: generallar, marşallar memuar yazdılar, Stalin haqqında az - çox dürüst məlumatlar verdilər. İ.Stalin şəxsiyyəti, onun 30 il SSRİ kimi nəhəng dövləti təkbaşına idarə etməsi danılmaz faktdır. Gürcü əsilli dahi rəhbər" millətçi idi, türk xalqına qarşı pataloji nifrəti vardı, M.C.Bağırova münasibətində təbii ki, L.P.Beriyanın müsbət rolu olmuşdur. Məşhur tənqidçi, Pedaqoji Universitetdə müəllimimiz olmuş Əhəd Hüseynov (O, gürcüstanlı idi və Tiflis Pedaqoji İnstitutda müharibə illərində ( 1941-1945) təhsil almışdır, deyirdi ki, İ.Stalin gizlincə göstəriş vermişdir ki, gürcü oğlanlarını ehtiyatla cəbhəyə göndərin, müharibə uzana bilər. Yadımdadır müharibədə gürcü oğlanları İveriya mehmanxanasının qarşısında çaxır içib mahnı oxuyurdular. Respublikaların illik büdcəsi təsdiq olunanda Gürcüstan SSRİ-yə bizdən çox büdcə ayrılırdı...

İosif Stalin haqqında ziddiyyətli fikirlər hələ səngimir. Mənim üçün İ.Stalin müsbət şəxsiyyət deyil, hərçənd onun barəsində yazan müəlliflərimzin də həqiqətlə səsləşən fikirlərilə razılaşmağa dəyər. Mən belə bir qənaətə gəldim ki, xalq yazıçısı, görkəmli ədəbiyyatşünas Elçinin "525-ci qəzet"də (eləcə də "Ədəbiyyat qəzetin"də) "Mir Cəfər Bağırov kim idi?" məqaləsi son on illərin ən dəyərli və obyektiv yazısıdır. Mən Elçini ədəbiyyatımızın - nəsrimizin ən görkəmli ədibi hesab etmişəm və ədəbi məqalələrimdə adını hörmətlə çəkmişəm. Onun romanlarını, povestlərini oxumuşam. Vaxtilə "Azərbaycan" jurnalında çap etdirdiyim məqaləmdə bir hekayəsi haqqında yazmışam. Elçini mən müqtədir ədəbiyyatşünas səviyyəsində görürəm. Məndən ifadəm üçün inciməzlər: son illərdə də ədəbi tənqidə (və ədəbiyyatşünaslığa) baş vuran bəzi akademiklərlə, professorlarla müqayisə etməzdim. Elçin öz ədəbi üslubunu yaratmış şəxsiyyətdir, zəngin mütaliəçi və iti yaddaşa malikdir!.. Qeyri - mümkündür, iqtibas gətirdiyi, vaxtilə əldə etdiyi kitablara yerində istinad edən Elçin publisistikasının yeni "alt qatı" üzə çıxdı və tarixi şəxsiyyətlərə çağdaş yanaşması, özü də obyektivlik prizmasından baxışı orijinaldır.

Elçin xeyli ekskursiyadan sonra əsas mətləbə gəlir, "Mir Cəfər Bağırov kim idi?" adlı geniş analitik təhlil ruhlu məqaləsində 20 il (1933-1953) Azərbaycan SSRİ-nin rəhbəri olmuş bu şəxsiyyətin fəaliyyətini təhlil etmişdir. Şəxsi münasibətinə gəldikdə o, M.C.Bağırov haqqında yalnız mənbələrdən çıxış edə bilərdi. Birinci mənbəyə əsasən yazır: 1933-1953-cü illər arasında bütün Azərbaycan Mir Cəfər Bağırovun zəhmi altında idi, ancaq inzibati - ideoloji canfəşanlığı və sözsüz bacarığı, ciddi və güclü xarakteri Kremldə də onun yerini möhkəmlətmiş, Kremlətrafı (Stalinətrafı demək daha doğru olar) mühitdə, başqa qubernatorlar (respublikaların birinci katibləri) arasında nüfuzunu artırmışdı və yüksək vəzifəli Kreml məmurları belə, nəinki onunla hesablaşır, ondan ehtiyat edirdilər. Xarici sovetoloqlar Mir Cəfər Bağırovu "Azərbaycanın Stalini" adlandırırdılar və bu yerdə şişirtmə yox idi.

Fikrini davam etdirir, Robert Takerə istinad edir: "

Mir Cəfər Bağırov haqqındakı ədəbiyyatda sənədlərə, səriştəli xatirələrə əsaslanan ciddi tədqiqatlar, yazılar da var və onun şəxsiyyəti, fəaliyyəti Azərbaycan və rus tədqiqtaçıları ilə bərabər, xarici ölkə sovetoloqlarının da diqqətini cəlb edir. Professor Robert Taker monoqrafiyasında yazır ki, Mir Cəfər Bağırov Azərbaycanda "Stalinin cəmiyyəti təmizləmə siyasətinin müstəsna qəddarlıqla həyata keçirirdi". (Robert Taker, Stalin. Moskva, "Ves Mir", 2006, str. 733.)

Yazıçının bu yanaşmasını təqdir edirəm, başqa cür də ola bilməzdi, qaldı M.C.Bağırovun obrazını tarixi şəxsiyyət kimi yaratmaq - irad tapmaq istəməzdim, hansı ki, illər öncə "Ölüm hökmü" romanını çap etdirmişdir. Romanın nəşrindən sonra M.C.Bağırov və onun siyasi - sosial fəaliyyəti ilə əlaqədar xeyli araşdırmalar aparılmış, gördüyü işlər üzə çıxarılmışdır. Bu sahədə şair - tədqiqatçı Teyyub Qurbanın, Füzuli Baratovun, Məmməd Qədirin, Məmmədtağı Bağırovun və b. həqiqət dolu əsərləri çap olunmuşdur. Mən bu məqalələri və kitabları oxumuşam, canlı faktlar barədə düşünmüşəm. Şübhəsiz, M.C.Bağırov ziddiyyətli dövlət xadimidir, xalis Stalin dövründə yaşamışdır, 1937-1938-ci illər represiyasının birbaşa iştirakçısı və həyata keçirəni olmuşdur. Və bu sonuncu addım onun fəaliyyətinə kölgə salmışdır. H.Cavid, M.Müşfiq, Əhməd Cavad kimi ədəbi simalar, habelə görkəmli alimlər, vəzifəli ziyalılar onun imzası ilə ya güllələnmiş, ya da Sibirə sürgün edilmişdir. Bu tarixi ləkəni silmək çətindir. M.C.Bağırov haqqında yazarkın təkcə "qara ləkə" axtarmaq, ictimai mühitin ziqzaqlarını nəzərə almamaq, Stalin epoxasının çirkinliklərini bir şəxsiyyətin fəaliyyəti fonunda verməyə dəyərmi??

M.C.Bağırov vətənpərvər olmuşdur. O 1941-ci ildə 15 oktyabrda İrana yola düşərkən çıxışında demişdir (stenoqrama əsasən): "Əgər bizim damarlarımızdan heç olmazsa bir damla belə azərbaycanlı qanı axırsa, zor gücünə olsa da iki yerə ayrılan xalqımızın birləşməsinə nail olmalıyıq". Bu sözlərə soyuq yanaşmaq qeyri - mümkündür.

Başqa bir fakt: 1942-ci ildə M.C.Bağırov Azərbaycan KP (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi bürosunda SSRİ EA-Azərbaycan filialının Tarix İnstitutunun elmi işçisi erməni Ter - Qriqoryanın çap etdirdiyi bir kiatbçasını müzakirə etmişdir. Bu kitabçada Ter - Qriqoryan fürsətdən istifadə edərək Azərbaycanın xalq qəhrəmanı Babəki ərəb xilafətinə satan (evinə qonaq çağıraraq) erməni Səhl ibn Sumbatı ərəb işğalçılarına qarşı Arzax ermənilərinin milli qəhrəmanı kimi təqdim edir. Büronun qərarı ilə kitabın nüsxələri (3 min ədəd) tapılıb yığışdırılır. İnstitutun direktoru İsmayıl Hüseynov və əməkdaşı Ter-Qriqoryan, filialın rəhbərlərindən biri olan Heydər Hüseynov və b. cəzalandırılır. Bu tarixi fakt M.C.Bağırovun vətənpərvərlik hissinə işarə deyilmi?

M.C.Bağırov güclü şəxsiyyət idi və yadıma filosof H.Laskinin sözləri düşdü: "Yalnız güclü adam öz gücsüzlüyünü etiraf edə bilər".

Məqalədə Elçin daha irəli getməyə borclu idi, o baxımdan M.C.Bağırovun rəhbərlik dövründə Bakı metrosunun tikilməsi (23 may 1949) işinə başlanmışdır. 1939-cu ilin 23 avqust ayında Samur - Dəvəçi kanalının inşasını da əlavə edərdik. 14 iyul 1945-ci ildə Mingəçevir Su - Elektrik stansiyası işinin bərpası, 5 may, iyul 1951-ci ildə Respublika stadionunun tikintisi başa çatdırılmışdır. Belə ki, 1951-ci ildə İstisu kurortunun, Qaradağ Sement zavodunun tikintisini də əlavə edərdik.

Bu illərdə (1947-1950) tədbirlər planı təsdiq olunmuşdur: tədris ilinə (1947-1948) məktəblərin hazırlığı və Əlyazmalar İnstitutunun təşkilini, mədəniyyət və İstirahət Parkını da əlavə edərdik.

Azərbaycanlıların doğma torpaqlarından köçürülməsi (1948) məsələsi də M.C.Bağırovun rəhbərlik illərinə düşmüşdür. Əhalinin sayı 12.447 nəfərə çatmışdır. Bu tarixi məsələ 26 dekabr 1949-cu ildə Teymur Quliyevin rəhbərliyi ilə müzakirə edilmişdir. Nazirlər Sovetinin sədri olan T.Quliyev ilk dəfə "didərgin" sözünü işlətmişdir.

Mir Cəfər Bağırov bütün "qəddarlığı" ilə yanaşı görkəmli ziyalılarımızdan Üzeyir bəy Hacıbəyov və Heydər Hüseynovla yaxşı ünsiyyətdə olmuşdur. Məsələn, M.C.Bağırov Ü.Hacıbəyovun yubileyinin təntənəli keçirilməsinin ilk təşəbbüsçüsü olmuşdur.

Dahi bəstəkarın vəfatının bir illiyi ərəfəsində Mir Cəfər Bağırovun tapşırığı ilə Azərbaycan hökuməti ölməz bəstəkarın xatirəsini əbədiləşdirmək sahəsində tədbirlər planlaşdırmışdır. Bu tədbirlər qərar şəklində Ü.Hacıbəyovun anadan olduğu gün - sentyabr ayının 18-də respublika qəzetlərinin birinci səhifəsində dərc olunmuşdur.

1945-ci ilin 19 sentyabrında Azərbaycan K (b) Partiyası Mərkəzi Komitəsinin büro iclası çağrılmış, Opera və Balet teatrında yubiley təntənəsində M.C.Bağırov özü iştirak etmişdir. Bu barədə "Kommunist" qəzeti yazmışdır (bax: 19 sentyabr 1945-ci il sayı).

***(Ardı var)***

Azərbaycanın bir gənci mənə messencer vasitəsilə müraciət etmişdi: "Niyə qarmonumuz geniş şəkildə tanınmır, dünyanın çalğı alətləri sırasında deyil?".

# Azərbaycan qarmonu



Əvvəlcədən bildirirəm ki, Azərbaycan qarmonunun yaranması, tarixi mərhələləri barədə fikir bildirməyəcəm. Çünki bu barədə geniş məlumat çap olunaraq yayılan kitablarımda, məqalələrimdə və elmi işimdə öz əksini tapıb.

Əksər dövlətlərdə, xalqlarda, millətlərdə istifadə olunan çalğı alətləri çoxdur və saysaq böyük siyahı alınacaq. Həmin gənc fortepiano, orqan, klarnet, qoboy, fleyta, viola (violin-skripka), kontrabas, truba, trombon, faqot, gitara və s. alətlərin adlarını nümunə olaraq göstərir. Dünyəvi çalğı alətləri daim simfonik və digər orkestrlərin tərkibində, həmçinin solo olaraq çalınmaqdadır. Bəstəkarlar belə musiqi alətlərinin hər biri üçün əsərlər yazıblar və bu yönümdə iş davam edir.Azərbaycan bəstəkarları da bu istiqamətdə çox iş görüb.

Yalnız qarmon deyil, bizim digər çalğı alətlərimiz də dünyəvi sayılmır və yalnız bizim özümüzə məxsusdur. Ermənilərdən başqa heç bir xalq, millət bizim musiqi alətlərinə sahib çıxaraq demir ki, bu bizimdir.

Bir sıra maraqlı, dəyərli işlərlə dünyada müəyyən qədər tanınan, Amerikada yaşayan Çin əsilli Yo Yo Ma var. Musiqiçi və yazardır. O, 1955-ci ildə Fransanın Paris şəhərində anadan olub. Bəstəkarların əsərlərini, xalqların nadir musiqi nümunələrini hazırlayıb səhnələrə çıxararkən müxtəlif xalqların çalğı alətlərindən təşkil etdiyi "İpək yolu" ansamblının tərkibində səsləndirir. Belə hallarda o, dəfələrlə Azərbaycanın musiqi alətlərindən də orkestrə daxil edərək heyətin tərkibində bizim mahir ifaçıların da sənətini sərgiləyib.

Nümunə olaraq qeyd edirik ki, 2000-ci illərin əvvəllərində Yo Yo Ma Amerikada Firəngiz Əlizadənin "Dərviş" əsərini səhnəyə qoyarkən xanəndə Alim Qasımov ney çalan İlham Nəcəfzadə və qanun ifaçısı Təranə Əliyevanın müşayiəti ilə oxuyub.



Yo-Yo Ma sonralar müxtəlif illərdə dəfələrlə Alim Qasımovu öz layihələri ilə konsertlərə dəvət edərkən xanəndəni tarzən Malik Mansurov və kamança ifaçısı Rauf İslamov müşayiət edib.

Dünya ölkələrində tanınan "Atlas" adlı musiqi qrupu var. Onu Amsterdam Konservatoriyasında kafedra müdiri vəzifəsində çalışan Jojell Bons 2002-ci ildə yaradıb. Həmin qrupun vasitəsilə dünya tamaşaçılarını heyran edən proqramlar hazırlanır. Bizim ölkəmizdən "Atlas"a mahir kamança ifaçısı, xalq artisti Elşən Mansurovla birlikdə tarzən, əməkdar müəllim Elçin Nağıyev dəvət olunur. Həmin ansamblla təşkil olunan konsertlər həm də bizim çalğı alətlərimizi təbliğ etmək üçün bir vasitə deyilmi? 20 ildən artıqdır ki, adı çəkilən musiqiçilərimiz "Atlas" qrupu ilə əməkdaşlıq edir.

İnkişaf etmiş ölkələrin böyük orkestrlərinin tərkibində Azərbaycan musiqi alətlərindən istifadə olunmur. Nə də oralarıın təhsil müəssisələrində musiqi alətlərimiz tədris edilmir. Milliyyətindən asılı olmayaraq bizim xalq çalğı alətləri ixtisasları üzrə təhsil almaq istəyənlər ali musiqi ocaqlarımıza qəbul olunaraq ödəniş vasitəsilə oxuyurlar.

Bu bir başqa məsələdir ki, qardaş türk dövlətləri, Avropa ölkələri və ya Amerikanın böyük konsert salonlarında, həmçinin elm, tədris ocaqlarındakı musiqi simpoziumlarında, konfranslarda Azərbaycan musiqisi ilə bağlı tədbirlərdə ifaçılarımız dəvət olunaraq çalğı alətlərimiz oranın orkestrlərinin və ya qrupların tərkibində səsləndirilir.

Klavişli, körüklü çalğı alətləri vardır ki, daimi olaraq dünya xalqlarının həyatına, məişətinə, adət-ənənəsinə, musiqisinə daxil edilərək müntəzəm istifadə olunmaqdadır-harmon, akkordeon, bandoneon, bayan, qarmonlar (bu alətlərin sırasında qarmoşkalar), müxtəlif növlü dodaq qarmonları bu sıradadır. Bəzi ərəb ölkələrində, bundan başqa Əfqanıstan, Pakistan və Hindistanda harmon çalırlar.

Yalnız bizə aid olan deyil, keçmiş SSRİ daxilində yaşamış xalqların hər birinin özünəməxsus olan qarmonları da dünyəvi səviyyə almayıb, yəni həmin xalqların özünə aid olaraq isifadədədir. Nümunə kimi deyək ki, rus qarmonları (qarmoşkaları) da, həmçinin, dünya xalqlarının ifaçılığında rus qarmonlarından deyil, akkordeonlardan istifadə olunur.

Ölkələr var ki, orada yaşayan xalqların əksər ailələrində akkordeon var. Çay, dəniz, şəlalə kənarına, meşəyə, bağ-baxçaya, yaşıllıqlara, çəmənliklərə istirahətə gedərkən, ya gəzintilərə çıxarkən hər kəsin avtomobilində akkordeon olur və hara gedilirsə, orada bu



çalğı alətindən layiqincə istifadə edilir.

Akkordeon ansamblları, orkestrlər və müxtəlif qruplar tərkibində çalınmaqla bərabər həm də solo alətidir. Dünya bəstəkarları akkordeon üçün istər orkestrlər və istərsə də solo ifa əsərləri yazıblar. Elə Azərbaycan bəstəkarı, xalq artisti Firəngiz Əlizadə Avropada yaşayarkən kontrabas və akkordeon üçün əsər bəstələyərək səhnələrə çıxarıb.

Rusiyada və xüsusilə bir sıra Avropa ölkələrində yüksək səviyyəli akkordeonların istehsalı ilə məşğul olaraq bütün dünyaya realizə edən məşhur fabriklər fəaliyyətdədir. İllərlə bu fabriklərdə istehsal olsa da, ölkələrdə həmin alətlərin satışı müntəzəm davam etməkdədir.

Akkordeonlar qarmonlardan dəfələrlə imkanlı alətdir. Burada oktava genişliyi, çox registrli olması, sol klaviaturadakı akkord sistemi böyük əhəmiyyət daşıyır. Dünya xalqları akkordeonu kənara qoyub qarmondan istifadə etməyəcəklər. Azərbaycan qarmonlarının sol klaviaturasındakı səs ardıcıllığı bizim özümüzə məxsusdur, bizə aiddir və musiqimizə uyğunlaşdırılmışdır. Yəni alət formalaşdırılanda el havaları, xalq musiqimiz və muğamlarımızın ifası nəzərə alınıb. Burada, sol gövdədə dünya musiqisi üçün nəzərdə tutulan akkord sistemi yoxdur. Qarmonumuzun solundakı unison səslər dünya musiqisinin ifası üçün elə də əlverişli deyil. Bu başqa məsələdir ki, bizim ifaçılarımız usta, çox bacarıqlı olduqları üçün qarmonun sol tərəfindən layiqincə istifadə edirlər. Zaman-zaman bu baş verib və davam etməkdədir.

Akkordeonların sol gövdəsindəki akkord sistemindən istifadə etmək elə də çətin deyildir, bir düyməyə toxunmaqla akkordu səsləndirmək mümkündür. Hər musiqi cümləsinə, frazaya uyğun akkord almaq olur. Bu hal, bu vəziyyət ifa olunan əsərin, melodiyanın müşayiətini tam təmin edə bilir. Bizim qarmonların sol klaviaturasındakı unison səslər vasitəsilə akkordlarla çalğı yaratmaq çox çətindir. Bir daha qeyd edirəm ki, bu işdə ustalıq yaratmaq, əsl peşəkarlıq və pərgarlıq göstərmək bizim çox mahir qarmon ifaçılarımıza məxsusdur.

Təbii ki, bizim qarmonlarımızın da öz ifa imkanları, tembr xüsusiyyətləri, milli musiqimizin, muğamlarımızın, xalq, aşıq və bəstəkarlarımızın mahnılarının gözəl ifasını təmin edən doğma səslənməsi var. Bəli, bu belədir, belə də var və bizim ruhumuzu, zövqümüzü oxşayır. Qarmon bizim milli hisslərimizi tərənnüm edir. Bu çalğı aləti ilə gözəl səslənmə yaratmaq, musiqimizin çoxçalarlığını vermək, harmoniyasını ifadə etmək mümkündür.



Qarmonu ölkəmizdəki kiçik, böyük qruplar, ansamblar və xalq çalğı alətləri orkestrlərinin tərkibində səsləndirmək olur. Lakin bu o demək deyil ki, Azərbaycan qarmonları bütün dünya xalqları ilə doğmalaşacaq. Bu yazı vasitəsilə bəzi cəhətləri, müəyyən şərtləri izah etməyə çalışdım.

Bu faktdır, bizim ifaçılarımız Azərbaycan qarmonunu geniş şəkildə meydana çıxararaq, ifaçılıq səviyyəsini imkanlı hala gətirərək yüksəyə qaldırıblar. Bu barədə çəkinmədən xalq artisti, virtuoz ifaçı Ənvər Sadıqovun adı xüsusi qeyd edilməlidir.

Həm də qarmon ifasının sol əllə (sol klaviatura) müşayiəti işində illərlə qarmonun not tədrisinin, müəllimlər-Xeyrulla Dadaşov, Sona İrzaquliyeva, Əlibala Ağayev, Zair Mustafayev, Əlövsət Piriyev, Ceyhun Qəmərlinski, Natiq Rəsulov, Sərxan Abıyev, Vüsal Qəhrəmanov, İlham İsmayıl, Gülnarə Qasımova, Könül Hüseynova, Xuraman Nağıyeva və başqalarının xüsusi əməyi olub (adları qeyd olunmayanlardan üzr istəyirəm, həm də axı kimləri isə tanımıram).

Vaxtılə yaşadığımız Sovet dövründə bütün respublikalarda və bizdə də akkordeon tədris edilirdi. Qeyri azərbaycanlılarının yazıb tərtib etdiyi "Akkordeon məktəbi" kitabları, bu ixtisas aid məcmuələr SSRİ məkanında tədrisdə xüsusi rol oynayırdı. Həmin tədris vəsaitlərində Sovet və xarici ölkə bəstəkarlarının əsərləri özünə yer almışdır.

Azərbaycanda qarmonun ixtisas kimi tədrisi inkişaf etdikcə bizdə də "Qarmon məktəbi" kitabları, bu sahəyə aid müxtəlif not məcmuələri, proqramlar və göstəricilər yazılaraq təhsildə geniş şəkildə yayıldı. Bu istiqamətdə böyük işlər görənlər sırasında Xeyrulla Dadaşov, Sona İrzaquliyeva, filologiya elmləri doktoru, professor Fərahim Sadıqov, əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zakir Mirzə, Natiq Rəsulov, Əli Bayramov, Zair Mustafayev, dosent Sərxan Abıyev, əməkdar incəsənət xadimi, professor Aydın Əzim, Əbdül Həşimov, Gülnarə Qasımova, Könül Hüseynova, Mehriban Nəsirova, Əhsən Rəhmanlı və başqalarının adlarını qeyd etməliyik.

Belə tədris vəsaitlərində qammalar, etüdlər, rus, Avropa, Azərbaycan bəstəkarlarının əsərləri, xalq mahnıları, oyun havaları, zərbli muğamlar, dəramədlər və rənglər öz əksini tapır.

Xalq artisti, bəstəkar, professor Süleyman Ələsgərov qarmon üçün iki əsər bəstələyib:-"Lirik rəqs", "Skerso".

Ustad qarmon ifaçısı, pedaqoq



Zair Mustafayev qarmon tədrisində istifadə olunmaq, çalınmaq üçün yeddi melodiya bəstələyib və bunların fortepiano müşayiətini də özü yazıb.

Bu məqalənin yazarı kimi deyirəm, 20 ildən artıqdır ki, qarmon ifaçılığı sənətilə bağlı keçirilən bütün tədbirlərdə, elmi konfranslar və seminarlarda öz çıxışım vasitəsilə Azərbaycan bəstəkarlarına qarmon üçün əsərlər yazmalarını xahiş edirəm. Bu barədə "Qarmonla fortepiano üçün", "Qarmonla xalq çalğı alətləri orkestri üçün", "Qarmonla simfonik orkestr üçün" və "Qarmonla kamera orkestri üçün" konsertləri nəzərdə tuturam.

***(Ardı var)***